AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 14 (1359), 10 - 16 aprel 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

Lənkəran şəhərində Olimpiya İdman Kompleksinin tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Lənkəran şəhərində Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.9.11-ci yarımbəndində göstərilmiş məbləğin 12,0 milyon (on iki milyon) manatı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 aprel 2018-ci il.***

# Buzovna qəsəbəsində yeni idman zalının açılışı olub




Aprelin 9-da Xəzər rayonunun Buzovna qəsəbəsində yeni idman zalının açılışı olub. Açılış mərasimində çıxış edən gənclər və idman naziri Azad Rəhimov idman zalının Bakı və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına əsasən, Gənclər və İdman Nazirliyinin sifarişi əsasında tikildiyini bildirib. İdman zalında hər cür şəraitin yaradıldığını vurğulayan nazir deyib ki, uşaqlar, yeniyetmələr və gənclər burada idmanın sirlərinə yiyələnə biləcəklər. Azad Rəhimov qeyd edib ki, Buzovna idman zalının istifadəyə verilməsi Azərbaycanda idmanın inkişafına göstərilən yüksək diqqət və qayğının növbəti təzahürüdür. Bu gün ölkəmizdə 43 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. Bundan əlavə, bir neçə Olimpiya İdman Kompleksinin tikintisi davam etdirilir.

Milli Məclisin deputatı, Azərbaycanın Uşaq-Gənclər Futbol Federasiyasının (UGFF) prezidenti, deputat Rauf Əliyev çıxışında Buzovna sakinlərinin xahişi əsasında inşa edilən zalın qəsəbədə uşaq, yeniyetmə və gənclərin idmana daha geniş cəlb olunmalarına imkan yaradacağını deyib.

Çıxışlardan sonra mərasim iştirakçıları zalda yaradılan şəraitlə tanış olublar.

Ümumi sahəsi 1500 kvadratmetr olan ikimərtəbəli binada universal idman, trenajor zalları, şahmat, tədris, məşqçi, həkim, soyunub-geyinmə otaqları, inzibati kabinetlər və kafe var. Bina ən müasir avadanlıqla təchiz edilib. İdman zalının ərazisində süni örtüklü voleybol meydançası da yaradılıb. Buzovna idman zalı müasir havalandırma, işıqlandırma və yanğına qarşı mühafizə sistemləri ilə təchiz edilib. Buraya yeni su, qaz, işıq və rabitə xətləri çəkilib. Ərazidə geniş abadlıq işləri görülüb, yaşıllıq zolağı salınıb.

# Sərbəst güləş yığmamız Dünya kubokunu 2-ci yerdə başa vurub



Aprelin 7-8-də ABŞ-ın Ayova ştatının Ayova-Siti şəhərində sərbəst güləş üzrə Dünya kuboku yarışları keçirilib.

B qrupunda yer alan Azərbaycan milli yığması aprelin 7-də Kuba yığmasını 8:2, Qazaxıstan milli yığmasını isə 9:1 hesabı ilə məğlub edib. Aprelin 8-də isə sərbəst güləşçilərimiz Monqolustan yığmasına 7:3 hesabı ilə qalib gələrək yarışların final mərhələsinə yüksəliblər.

Final mübarizəsində yığmamızın rəqibi ABŞ komandası olub. Carver-Hawkeye Arenasında keçirilən gərgin qarşılaşmada yığmamız ev sahibi olan ABŞ millisinə 6:4 hesabı ilə uduzub. Beləliklə, sərbəst güləşçilərimiz Dünya kuboku yarışlarını ikinci yerdə başa vurublar.

ABŞ-ın sərbəst güləş üzrə milli yığması Dünya çempionatı çərçivəsində 2003-cü ildən bəri ilk dəfə birinci yerə yüksəlib. Kuba yığmasına 6:4 hesabı ilə qalib gələn Yaponiya yığması isə üçüncü yerə sahib çıxıb.

Final oyunlarının nəticələri haqqında danışan ABŞ yığmasının baş məşqçisi Bill Zadik Amerika idmançılarının ələ çıxış etdiyi və böyük səy göstərdiyini bildirib. Zadik deyib: "Biz bilirdik ki, Azərbaycan çətin rəqibdir və matç ağır keçəcək və elə də oldu. İdmançılarımız əla mübarizə apardılar".

# BMX üzrə dünya çempionatını Bakı Media Mərkəzi yayımlayacaq

Bu ilin iyun ayında velosiped idmanının BMX növü üzrə Azərbaycanda təşkil olunacaq dünya çempionatının canlı yayım çəkilişini Bakı Media Mərkəzi həyata keçirəcək. Bu, idman həvəskarlarına "Baku BMX 2018" yarışını aparıcı idman kanalları vasitəsilə birbaşa izləmək imkanı verəcək.

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) və Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) təşkilatçılığı ilə keçiriləcək dünya çempionatı iyun ayının 5-9-da Bakı BMX Veloparkında baş tutacaq. Çempionatda planetin 50-dən artıq ölkəsindən təxminən 2 min velosipedçinin iştirakı gözlənilir.

Bakı Media Mərkəzi bu mötəbər beynəlxalq yarışın video və foto çəkilişlərini həyata keçirməklə yanaşı, DÇ-yə hazırlıq mərhələsində tanıtım çarxının çəkilişini və dünyanın aparıcı idman kanallarında yerləşdirilməsini də təmin edəcək. Əsas çəkilişlər 16 kameralı Səyyar Televiziya Kompleksi vasitəsilə aparılacaq. Bundan başqa, yarış zamanında keyfiyyətli çəkilişlər aparmaq məqsədilə Mərkəzin yeni texniki qurğularından istifadə olunacaq.

Qeyd edək ki, Bakı Media Mərkəzi Azərbaycanın audiovizual məhsulların istehsalı ilə məşğul olan aparıcı və innovativ media şirkətidir. Şirkət bir sıra yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin yayımının təşkil olunmasında geniş təcrübəyə malikdir.

Məkəz bu vaxta qədər "Tour d'Azerbaidjan" velosiped turunun Bakıdan və bölgələrdən canlı yayımlarını təşkil edərək dünyanın idman həvəskarlarına bu mötəbər yarışı "Eurosport" kanalında birbaşa izləmək imkanı verib.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## İdmanın inkişafında klub və cəmiyyətlərin rolu əvəzsizdir

**Səh. 5**

# Olimpizm

## Tomas Bax müzakirə edib

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax Yaponiyanın baş naziri Sindzo Abe ilə Şimali Koreya idmançılarının



Tokio-2020 Olimpiadasında iştirakının mümkünlüyü barədə danışıb.

Tomas Bax və Sindzo Abe yarım saat ərzində müzakirə aparıblar. Müzakirə zamanı onlar BOK prezidentinin keçən ay Pxenyanda Koreya Xalq Demokratik Respublikasının (KXDR) rəhbəri Kim Çen Inla görüşü barədə danışıblar.

Baş nazir şimali koreyalıların olimpiadaya dəvət olunması məsələsində Yaponiya xalqının istəyinin mütləq nəzərə alınacağını bildirib.

Rəsmi məlumata görə, 1977-1983-cü illərdə 17 Yaponiya vətəndaşı KXDR-nın xüsusi dövlət orqanları tərəfindən qətlə yetirilib. Xalq isə bunun 100 nəfərə qədər olduğunu deyir.

Hazırda şimali koreyalıların Yaponiyaya girişinə qadağa qoyulub.

Məlumat üçün bildirək ki, KXDR-nın 22 idmançısı bu ilin fevralında Cənubi Koreyada keçirilən Pxencxan-2018 Qış Olimpiya Oyunlarında iştirak edib. Qadınlar arasında hokkey turnirində isə Cənubi və Şimali Koreya vahid komandada çıxış edib.

## Olimpiada-2026 uğrunda 7 şəhər mübarizə aparacaq

2026-cı ildə keçiriləcək qış Olimpiya və Paralimpiya Oyunlarına ev sahibliyi etmək istəyən ölkələrin siyahısı açıqlanıb.

Beynəlxalq Olimpiya Komitəsinə (BOK) yeddi ölkənin milli Olimpiya komitəsi (MOK) ərizə ilə müraciət edib. Beləliklə, Avstriya (Qrats), Kanada (Kalqari), Yaponiya (Sapporo), İsveç (Stokholm), İsveçrə (Syon), Türkiyə (Ərzurum) və İtaliya (Milan, Turin və ya Kortina-d Ampetso) qış olimpiadasını təşkil etmək üçün namizədliyini irəli sürüb.

Olimpiada-2026-ya ev sahibliyi edəcək şəhərin adı BOK-un gələn ilin sentyabrında keçiriləcək sessiyasında seçiləcək.

Qeyd edək ki, sonuncu - XXIII Qış Olimpiya Oyunları bu ilin fevralında Koreya Respublikasının Pxencxan şəhərində keçirilib.

## Kalqaridə referendum keçiriləcək

Kalqari şəhər şurası şəhərin Olimpiada-2026-ya ev sahibliyi uğrunda mübarizə aparması ilə bağlı referendumun keçirilməsini mümkünlüyünü müzakirə edib. Bu barədə İnside The Games portalı xəbər verib.

Referendumun keçirilməsi qəbul olunduğu təqdirdə onun müddəti müəyyən ediləcək. Referendum 6 ay çəkə bilər və onun təşkil üçün 1,27 milyon dollar vəsait tələb olunur.

Kalqari Olimpiada-2026 uğrunda mübarizə aparmaq üçün Beynəlxalq Olimpiya Komitəsinə (BOK) müraciət edən 7 namizəddən biridir. Kanadanın kurort şəhəri ölkədən və Albert vilayətindən 6,6 milyon dollar həcmində maddi dəstək alsa da, xalqın razılığını almaq üçün referendum təşkil etməyi planlaşdırır.

## Futbol üzrə Dünya Çempionatına 65 gün qalır

FIFA WORLD CUP RUSSIA 2018

Marşallar üçün təlimlərə start verilib

Yaxtaçımız beynəlxalq yarışlarda mübarizə aparıb

Səh. 4

"Qarabağ" Türkiyədə mükafata layiq görüldü

Cavab oyununu formallığa çevirən matçlar

Səh. 7

## Anons

*Nenad Lalaviç:* "Azərbaycanın Dünya Güləş Birliyində xüsusi yeri var"

İdmançımız Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya qazanıb

Almaniyada Azərbaycanın dövlət himni səsləndirilib

Komandamız Türk Şurası İdman Oyunlarının qalibidir

Səh. 2

Ağırlıqqaldırma yığmasının mərkəzi bazasında üzgüçülük kompleksi açılıb

Triatlonçularımız təsnifat turnirlərində iştirak edəcəklər

Səh. 3

# Prezident seçkiləri ilə bağlı tədbirlər keçirilib

Aprelin 3-də Azərbaycan Taekvondo Federasiyasında ölkəmizdə 11 aprel prezident seçkiləri ilə bağlı toplantı keçirilib. Federasiya rəhbərliyi və məşqçi-müəllimər, eləcə də idmançıların iştirak etdiyi tədbirdə çı-



xış edən vitse-prezidentlər Nağı Səfərov, Niyaməddin Paşayev və baş katib Həmdiyyə Məmmədov respublikamızda bütün sahələrdə olduğu kimi idman sahəsində də aparılan islahatlardan danışıb, Prezident İlham Əliyev tərəfindən idmana və idmançılara göstərilən diqqət və qayğını yüksək qiymətləndirib. Nağı Səfərov vurğulayıb ki, dövlətimizin başçısının idmanın inkişafı, cəmiyyətdə idmançıların nüfuzunun artırılması istiqamətində həyata keçirdiyi siyasət idmançılar tərəfindən böyük rəğbətlə qarşılanır. Ölkəmizdə keçirilən tədbirlər buna bariz nümunədir. Vitse-prezident taekvondoçuların da qarşıdakı prezident seçkilərində İlham Əliyevi dəstəkləyəcəklərinə əminliyini ifadə edib. Çıxış edən idmançılardan dünya və Avropa çempionları, Olimpiya mükafatçıları da Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəklədiklərini vurğulayıblar və seçkilərdə cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

* * *

Azərbaycan Boks Federasiyasında (ABF) aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə bağlı iclas keçirilib. Toplantıda ABF rəhbərliyi, milli komandaların məşqçilər korpusu və boksçular iştirak ediblər.

Federasiyanın I vitse-prezidenti Ağacan Abiyev öncə seçkilər barədə ətraflı məlumat verib. O, aprelin 11-də təşkil olunacaq seçkilərdə hər bir Azərbaycan idmançısının iştirakının vacibliyindən söhbət açıb. ABF kollektivi, Olimpiya, dünya və Avropa çempionatının mükafatçıları seçkilərdə Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevi dəstəkləyəcəklərini bəyan ediblər.

Ağacan Abiyev İlham Əliyevin Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyini də vurğulayaraq, onun bütün sahələrə olduğu kimi, idmana da xüsusi diqqət ayırdığını vurğulayıb. O bildirib ki, ölkə rəhbəri ümummilli lider Heydər Əliyevin demokratik dövlət quruculuğu siyasətini uğurla davam etdirir. İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda hər bir sahədə islahatlar daha da sürətlənib, yeni mərhələyə qədəm qoyub.

Vitse-prezident idmançılarımızın uğurlarının da İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğı sayəsində reallaşdığını qeyd edib. Ağacan Abiyev dövlət başçısının təşəbbüsü ilə təkcə paytaxtda deyil, Bakıdan kənarda da idman komplekslərinin fəaliyyətə başlamasından və bunun faydasından danışıb. O bildirib ki, məhz bu uğurlu siyasət xalqımızın, gənc nəslin sağlam böyüməsinə hesablanıb.

İclasda ölkə boksunun zirvələrdə olmasında Azərbaycan Prezidentinin rolunun danılmaz olduğu vurğulanıb. Bildirilib ki, idmanın maddi-texniki bazasının dünya standartlarına cavab verməsi, atletlərimizin, xüsusilə də, boksçularımızın beynəlxalq arenada qazandığı uğurların birbaşa səbəbkarı cənab İlham Əliyevdir. Bu uzaqgörən siyasət nəticəsində Azərbaycan beynəlxalq idman qurumlarında böyük nüfuza malikdir və onlar da istənilən yüksək səviyyəli yarışın təşkilatçılığını ölkəmizə tərəddüd etmədən həvalə edirlər.

Yekunda yığmamızın aparıcı boksçuları, həmçinin A.Abiyev xalqımızı seçkilərdə iştirak etməyə və güclü Azərbaycan naminə İlham Əliyevə səs verməyə çağırıb.

*Güləş*

## *Nenad Laloviç:*
## "Azərbaycanın Dünya Güləş Birliyində xüsusi yeri var"

ABŞ-ın Ayova ştatında keçirilən sərbəst güləş üzrə Dünya kuboku yarışlarında iştirak edən Dünya Güləş Birliyinin (DGB) prezidenti Nenad Laloviç AGF-nin rəsmi saytına müsahibə verib.

Ölkəmizin Dünya Güləş Birliyində xüsusi yeri olduğunu deyən Nenad Laloviç, Azərbaycanın güləş yarışlarını hər zaman yüksək təşkilatçılıqla həyata keçirdiyini deyib. Ölkəmizin ev sahibliyi etdiyi ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan Qızıl Qran-pri turniri, I Avropa Oyunları, Avropa və dünya çempionatlarını xatırladan DGB rəsmisi bu yarışlar haqqında xoş təəssüratlarını bildirib: "Azərbaycanda bir neçə dəfə olmuşam və burada yüksək səviyyədə təşkilatçılığın şahidi olmuşam. Ümid edirəm ki, gələcəkdə Azərbaycanın ev sahibliyi edəcəyi digər



yarışları da izləyəcəyik. Çünki biz Azərbaycan Güləş Federasiyasının böyük təcrübəyə malik olduğunu bilirik. Azərbaycanın Dünya Güləş Birliyində xüsusi yeri var".

Qədim güləş ənənələrinə sahib olan Azərbaycanın yüksəlişdə olduğunu deyən Nenad Laloviç ölkəmizin dünya güləşində daim yüksək zirvələr fəth edəcəyinə inandığını ifadə edib: "Dünya Kuboku yarışlarında iştirak edən Azərbaycan komandası çox güclüdür və biz Budapeştdə keçiriləcək dünya çempionatında da güclü Azərbaycan komandasının iştirak edəcəyini gözləyirik. Düşünürəm ki, Azərbaycan xalqının güləşçilərə bəslədiyi ümidlər Tokio-2020 Yay Olimpiya Oyunlarında da reallaşacaq".

Aprelin 7-də ABŞ-ın Ayova ştatında sərbəst güləş üzrə Dünya kuboku yarışları ilə bağlı komanda nümayəndələrinin və yarışı idarə edəcək hakimlərin iştirakı ilə seminarı təşkil edilib.

qaydalarına edilən son dəyişikliklər barədə məlumat verilib. Komanda nümayəndələrindən və hakimlərdən yeni qaydalara qarşı daha diqqətli olmaq və DGB-nin yarış qaydalarına riayət etmək tövsiyə edilib.

## Azərbaycan nümayəndə heyəti seminarda iştirak edib

Seminar Dünya Güləş Birliyinin (DGB) texniki nümayəndələri, DGB-nin vitse-prezidenti Stan Dziedzic və qurumun İdarə Heyətinin üzvü, Braziliya Güləş Federasiyasının prezidenti Pedro Qama Filho, yarışın hakim-instruktorları İbrahim Cicioğlu (Türkiyə) və Zach Erretin (ABŞ) rəhbərliyi ilə keçirilib. Tədbirdə əvvəlcə güləş

Komanda nümayəndələrinin seminarında Azərbaycan Güləş Federasiyasının (AGF) 1-ci vitse-prezidenti, sərbəst güləş yığmasının baş məşqçisi Firdovsi Umudov, baş katib Orxan Məmmədov və beynəlxalq əlaqələr şöbəsinin müdiri Namiq Qurbanov, hakimlərin seminarında isə, beynəlxalq dərəcəli hakim Natiq Hacıyev iştirak ediblər.

*Gimnastika*

## Yeniyetmə gimnastlardan Belarusda uğurlu çıxış

Kişi idman gimnastikası üzrə yığma komandamızın təmsilçiləri Anar Həsənov və Aydın Əlizadə Belarusun Mogilyov şəhərində keçirilən beynəlxalq turnirdə ümumilikdə, 5 medal əldə ediblər.

Beynəlxalq yarışda ilk dəfə çıxış etmələrinə baxmayaraq gimnastlarımız 34 iştirakçı arasında fərqlənməyi bacarıblar. Belə ki, yeniyetmələr arasında gedən mübarizədə gimnastımız Aydın 6 alət üz-




rə hərəkətlərinin cəminə görə ən yüksək pillədə qərarlaşaraq, komandamızın hesabına ilk qızıl medalı yazdırıb. Aydın Əlizadə sərbəst hərəkətlərdə isə gümüş medala sahib olub. Bu alətdə qızıl medal isə elə digər həmyerlimiz Anar Həsənova qismət olub.

Anar Həsənovun növbəti çıxışı da ona qızıl medal qazandırıb. O, paralel qollarda hamıdan yaxşı nəticə göstərib. Dəstəli at üzərində çıxışına görə isə idmançımız ikinci pillədə qərarlaşıb.

*Taekvondo*

## İdmançımız Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya qazanıb



***Tunisin Hammamet şəhərində təşkil olunan taekvondo üzrə lisenziya xarakterli turnirə yekun vurulub.***

İki gün davam edən turnirdə iştirak edən gənclərdən ibarət Azərbaycan komandası ölkəmizə lisenziya qazandırıb.

Argentinada keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına vəsiqəni 44 kq çəki dərəcəsində yarışda mübarizə aparan taekvondoçumuz Minayə Əkbərova əldə edib.

O, 2014-cü ildə yeniyetmələr arasında birinci dünya çempionatının gümüş, 2015-ci il klublararası Avropa çempionatının bürünc, 2018-ci ildə isə gənclər arasında klublararası Avropa çempionatının qızıl medalının sahibi, həmçinin müxtəlif turnirlərin mükafatçısıdır.

*Xəbərlər*

## Millimiz Çində beynəlxalq turnirin qalibi oldu

Çinin Haikou şəhərində təşkil olunan "2018 CFA Belt and Road İnternational Beach Soccer Cup" beynəlxalq turnirdə iştirak edən çimərlik futbolu üzrə Azərbaycan milli komandası yarışın qalibi olub.

Sonuncu oyunda Çexiya yığma komandası ilə qarşılaşan millimiz 8:3 hesabı ilə qələbə qazanıb. Sabir Allahquliyev, Ramil Əliyev və Orxan Məmmədovun dubl etdiyi oyunda digər qolları Asif Zeynalov və İlkin Hacıyev vurublar.

Rəqib qapılarından 5 top keçirən Ramil Əliyev turnirin ən məhsuldar oyunçusu olub.

Qeyd edək ki, millimiz əvvəlki oyunlarda Macarıstana 7:3, Çinə isə 7:2 hesabı ilə qalib gəlib.

## Rafael Ağayevdən uğurlu debüt

Azərbaycan milli komandasının və "Qəbələ" idman klubunun təmsilçisi Rafael Ağayev Karate Kombat Təşkilatının üzvü olub. İdmançımız full-kontakt karate üzrə döyüşlərdə debüt edib.

Beşqat dünya, onqat Avropa çempionu olan karateçimiz döyüşünə Macarıstanın paytaxtı Budapeştdə çıxıb. Rafael Ağayev ilk döyüşündə Dominikan Respublikasının təmsilçisi Dionisio Qustavo ilə qarşılaşıb və qələbə qazanıb.

Qeyd edək ki, idmançımız yeni yaradılan Full Kontakt Karate Liqasında mübarizə aparacaq. 30-dan artıq ölkədən 100-dən çox karateçinin iştirak edəcəyi turnirə aprelin 26-da ABŞ-ın Mayami şəhərində start veriləcək.

*Cüdo*

## Almaniyada Azərbaycanın dövlət himni səsləndirilib

Almaniyanın paytaxtı Berlində keçirilən yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışına yekun vurulub. Beynəlxalq turnirin ilk günü Azərbaycan milli komandasının üzvü Mirağa Hacıyev gümüş medal qazanıb. Almaniya, Xorvatiya, İsrail və Türkiyə cüdoçularına qalib gələn Mirağa Hacıyev qızıl medal uğrunda görüşdə Türkiyə təmsilçisi Emirhan Karahana uduzaraq 2-ci yeri tutub.

Turnirin sonuncu günü də Azərbaycan milli komandası üçün uğurlu olub. Cüdoçularımız Avropa kubokunda daha 2 medal qazanıblar.

Turnirdə 90 kq çəki dərəcəsində yarışan Yaqub İsmayılzadə bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib olub. Toğrul Salmanov (90 kq-dan yuxarı) Berlində bürünc medala layiq görülüb.

Qeyd edək ki, Berlin turniri bu il Argentinada keçiriləcək yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya xalları verib.

* * *

İtaliyanın Liqnano şəhərində gənclər arasında cüdo üzrə Avropa kuboku yarışları keçirilib. 36 ölkədən 604 gənc cüdoçunun (397 oğlan, 217 qız) mübarizə apardığı Avropa kuboku turnirində Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız yarışda 27 cüdoçu (20 oğlan, 7 qız) ilə təmsil olunub.

Cüdoçularımız beynəlxalq turnirdə 6 medal qazanıblar.

Turnirdə 55 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Balabəy Ağayev bütün rəqiblərinə qalib gələrək qızıl medal əldə edib. Rəşxan Baxışəliyev (55 kq) və Yaşar Nəcəfov (60 kq) gümüş medala sahib olublar. Rövşən Əliyev (55 kq), Əhməd Yusifov (60 kq) və Adil Kərimli (100 kq) isə bürünc medal qazanıblar.

* * *

Türkiyənin Antalya şəhərində cüdo üzrə Qran-pri turniri keçirilib. Beynəlxalq turnirdə 50 ölkədən 316 cüdoçu (206 oğlan, 110 qız) mübarizə aparıb. Yarışın ikinci günü milli komandamız aktivinə bir medal yazdırıb. 73 kq çəki dərəcəsidə mübarizə aparan Hidayət Heydərov ölkəmizə bürünc medal qazandırıb.

Turnir Azərbaycan cüdoçuları üçün uğurlu olub. Beynəlxalq yarışda 100 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Zelim Kotsoyev bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülüb.

Finala qədər Koreya, Özbəkistan, İrlandiya və Rusiya təmsilçisini məğlub edən cüdoçumuz həlledici görüşdə Rusiya millisinin erməni əsilli üzvü Arman Adamyanla qarşılaşıb. Rəqibi üzərində inamlı qələbə qazanan Zelim Antalya turnirinin çempionu olub. Milli komandamızın daha iki üzvü beynəlxalq yarışın sonuncu günü medal qazanıb. 90 kq çəki dərəcəsində yarışan Məmmədəli Mehdiyev və Tural Səfquliyev bürünc medala layiq görülüb.

*Stolüstü tennis*

## Komandamız Türk Şurası İdman Oyunlarının qalibidir

***Aprelin 8-də Türk Şurası Universitet İdman Oyunlarında stolüstü tennis üzrə komanda yarışları başa çatıb. Şüa-İdman Sağlamlıq Mərkəzində keçirilən yarışda Azərbaycanın qadınlardan ibarət yığması turnirin qalibi olub. İkinci yeri Türkiyə millisi, üçüncü pilləni isə Qırğızıstan komandası tutub.***



Kişilərin komanda yarışlarında isə Türkiyə yığması çempion olub. Azərbaycan yığması ikinci, Qırğızıstan komandası isə üçüncü pillədə qərarlaşıb.

Aprelin 9-da Türk Şurası Universitet İdman Oyunları çərçivəsində stolüstü tennis üzrə şəxsi oyunlar keçirilib. Qadınların və kişilərin şəxsi yarışlarında Azərbaycan tennisçiləri birinci yeri tutublar.

Qadınların şəxsi oyunlarında II yeri təmsilçimiz Çen Xingtai, III yeri Türkiyə idmançısı Özdemir İpek, IV yerin sahibi isə tennisçisimiz Məryəm İmanova olub.

Kişilərin şəxsi oyunlarında isə II yeri təmsilçimiz Yu Xinhang, III və IV yerlərin sahibləri isə Türkiyə tennisçiləri Ulucak Batuhan və Gündüz Ziver olub.

# Ağırlıqqaldırma yığmasının mərkəzi bazasında üzgüçülük kompleksi açılıb



Azərbaycan ağırlıqqaldırma yığma komandasının mərkəzi bazası olan AAAF Park Yaşayış Kompleksində üzgüçülük kompleksi istifadəyə verilib. Bu, idmançıların ixtiyarına verilən daha bir hazırlıq məkanıdır.

Yığma komandanın beynəlxalq yarışlara hazırlığı üçün ən optimal şəraitin qurulması məqsədilə tikilən bu kompleksdə atletlər daha effektiv bərpa prosesi keçə biləcək. Onlar məkanın digər imkanlarından yararlanaraq məşqlərdə daha effektiv nəticə qazanacaqlar.

Üzgüçülük kompleksinin açılışında Xırdalan şəhər ictimaiyyətinin nümayəndələri, Qarabağ müharibəsi əlilləri, Federasiyanın rəhbər heyəti, həmçinin AAAF Park Yaşayış Kompleksi və "Zirvə" Beynəlxalq İdman Klubunun rəhbər şəxsləri və digər qonaqlar iştirak ediblər.

Müasir standartlara uyğun üzgüçülük kompleksi öz multifunksionallığı ilə seçilir. Burada 100 yerlik tamaşaçı tutumuna malik hovuz, uzunluğu 25 metr, dərinliyi isə 1,5-1,7 metr olan altı sıradan ibarətdir. Hovuz həm idman yarışlarının keçirilməsi, həm də şəxsi istifadə üçün yararlıdır. Kompleksdə üç sadə və iki VIP olmaqla beş masaj otağı fəaliyyət göstərir. Türk hamamı, buz otağı, fin saunası, rus hamamı, şok duş otağı, gözəllik salonu, istirahət otağı, paltardəyişmə və duş otaqları, üç VIP otaq da xidmətə açıqdır. Kompleksdə, həmçinin iyirmi nəfərin eyni zamanda məşğul ola biləcəyi fitnes mərkəzi də var. Ən müasir avadanlıqla təchiz olunmuş məkanda həm günün yorğunluğunu atmaq, həm də sağlamlığı möhkəmləndirmək mümkündür.

AAAF-ın birinci vitse-rezidenti Tofiq Heydərov, "Zirvə" Beynəlxalq İdman Klubunun direktoru və federasiyanın baş katibi Rizvan Rəsulov çıxış edərək Azərbaycanda idmançılara göstərilən qayğı və yaradılan şəraitdən danışıblar.

Ağır atletika üzrə yeniyetmələr arasında Avropa birinciliyinin üçqat qalibi Səbinə Əzimova idmançıların uğurlar qazanmaları üçün bütün şəraitin yaradıldığını qeyd edib.

# Triatlonçularımız təsnifat turnirlərində iştirak edəcəklər

***Azərbaycan Triatlon Federasiyasının (ATF) qərargahında təşkilatın İcraiyyə Komitəsinin cari ildə ikinci iclası keçirilib. İclasda yığma komandanın qazandığı nəticələr, gənclərdən ibarət komandanın vəziyyəti, respublikada triatlonun inkişafı, habelə bu mövsüm üçün planlar müzakirə edilib.***

Federasiyanın prezidenti Azər Məhərrəmov cari ilin komandamız üçün uğurlu başladığını deyib. O, bildirib ki, cari ildə idmançılarımızın aktivində üç gümüş medal var. Yığma komandanın lideri Rostislav Pevtsov Las-Palmasda keçirilən Avropa kubokunda, həm də Misirin Şarm Əl-Şeyx şəhərində təşkil olunan açıq Afrika kuboku yarışlarında fərqlənib. Kseniya Levkovskaya Misirdə gümüş medal əldə edib.

Qeyd edilib ki, bu ildən başlayaraq triatlon komandamız Olimpiya marafonunda iştirak edəcək. İdmançılarımız Tokio-2020 Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün həm də təsnifat turnirlərində mübarizə aparacaqdır. Yay Olimpiya Oyunlarından əvvəlki 2 il ərzində triatlonçular dünya və Avropa çempionatları, dünya kuboku yarışları da daxil olmaqla çıxış etdikləri bütün turnirlərdə Olimpiadaya lisenziya xalları toplayırlar.

Azər Məhərrəmov bildirib ki: "Azərbaycan triatlon idman növündə ilk dəfə Rio Olimpiadasında təmsil olunub. Bu nailiyyətə görə biz hamımız fəxr edirik. Bu, gələcəkdə daha yaxşı nəticələrə ümid etməyə əsas verir. Rostislav Pevtsov Rioya lisenziya alıb və orada debüt edib. Təbii ki, yeni mərhələdə başqa idmançılarla yanaşı, ona da böyük ümid bağlayırıq. Kseniya Levkovskaya və Darina Moskalenko da olimpiadaya vəsiqələr uğrunda mübarizə aparacaqlar".



Azərbaycanın gənclər yığması isə İspaniyada ilk təlim-məşq toplanışını keçirir. Orada triatlonçuların hərtərəfli hazırlaşması üçün gözəl imkanlar var. Təqvimə əsasən, komandamız Ukraynanın Jitomir şəhərində açıq çempionatda və başqa turnirlərdə iştirak edəcək.

ATF-nin prezidenti vurğulayıb ki, komandanı çox maraqlı və gərgin mövsüm gözləyir. Gənc idmançılar nəsli yetişir. Qarşıya qoyulan plan və vəzifələri həyata keçirən federasiya bu mövsüm olduqca məzmunlu fəaliyyət göstərməyi və məsuliyyətli olmağı vəd edir. Qarşıdakı aylarda idmançıları bir sıra böyük sınaqlar, o cümlədən Olimpiya təsnifat yarışları gözləyir. Bu turnirlər Azərbaycan triatlonçuları üçün yeni çağırış olacaqdır.

# 11 boksçumuz İtaliyada qüvvəsini sınayacaq



Aprelin 17-dən 26-dək İtaliyanın Rozeto-deli-Abrutsi şəhərində gənc boksçular arasında Avropa birinciliyi keçiriləcək. Azərbaycan yığması yarışda 11 idmançı ilə təmsil olunacaq. 10 oğlan və 1 qız boksçudan ibarət millimiz birinciliyin hazırlığını yekunlaşdırmaq üçün Apennin yarımadasına yollanıb. Turnirin təşkil olunacağı Rozeto-deli-Abrutsi şəhərində təşkil olunacaq 2 həftəlik təlim-məşq toplanışı yığmamızın məsul çempionata yüksək səviyyədə hazırlaşması məqsədi daşıyır. Komandamız yarışda baş məşqçi Vaqif Şirinovun rəhbərliyi altında iştirak edəcək.

Qeyd edək ki, Avropa birinciliyi bu ilin oktyabrında Argentinanın paytaxtı Buenos-Ayresdə keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq. Oğlanların yarışında 49 kiloqram çəki dərəcəsi istisna olmaqla, digər kateqoriyalarda 2000-2001-ci il təvəllüdlü idmançılar arasında ən yaxşı nəticə göstərənlər Olimpiadaya vəsiqə əldə edəcək. Qızların yarışında isə 4 çəki dərəcəsində (51 kq, 57 kq, 60 kq, 75 kq) ən yaxşı yeniyetmə boksçular Buenos-Ayresdə çıxış etmək hüququna yiyələnəcəklər.

# Mövsümün ilk cıdır yarışlarının qalibləri müəyyənləşdi

Azərbaycan Respublikası Atçılıq Federasiyası (ARAF) bu ilin cıdır mövsümünə start verib. Mövsümün ilk cıdır yarışı aprelin 7-də Binə Atçılıq Mərkəzi ərazisindəki hippodromda keçirilib.

Beş qaçışdan ibarət olan yarışda yaşı üç və yuxarı olan ərəb atları 1000 metr, üç yaş ingilis atları 1600 metr, üç yaş Qarabağ və Dilboz at-



ları 1000 metr, dörd yaş və yuxarı Qarabağ və Dilbaz atları 1600 metr, dörd yaş və yuxarı ingilis atları isə 2000 metr məsafədə güclərini sınayıb.

Üç yaşlı Qarabağ və Dilboz atlarının yarışında jokey Orxanbəy Hacıyev "Laləzar" ləqəbli atla birinci, jokey Vüsal Nəzərov "Yalçın qız" ləqəbli atla ikinci, jokey Hilal Nəzərov "Zirvə" ləqəbli atla üçüncü yerə çıxıb.

Üç yaş və yuxarı ərəb atlarının yarışında jokey Azər Əliyev "Pamir" ləqəbli atla birinci, jokey Rauf Tahirov "Ekru" ləqəbli atla ikinci, jokey Hilal Nəzərov "Renessans-tersk" ləqəbli atla üçüncü yerə yüksəlib.

Dörd yaş və yuxarı Qarabağ və Dilboz atlarının yarışında jokey Azər Əliyev "Dəmir" ləqəbli atla birinci, jokey Nazim Azayev "Qaradaq" ləqəbli atla ikinci, jokey Rəşad Həsənov "Qalxan" ləqəbli atla üçüncü yeri qazanıb.

Üç yaşlı ingilis atlarının yarışında jokey Rauf Tahirov "Atilla" ləqəbli atla birinci, jokey Orxanbəy Hacıyev "Sweet turf" ləqəbli atla ikinci, jokey Vüsal Nəzərov "Mavritaniya" ləqəbli atla üçüncü yeri əldə edib.

Dörd yaş və yuxarı ingilis atlarının yarışında isə jokey Orxanbəy Hacıyev "Majestic Warrior" ləqəbli atla birinci, jokey Azər Əliyev "Cherry grey" ləqəbli atla ikinci, jokey Səxavət Azayev isə "Mr.Tornado" ləqəbli atla üçüncü yerin sahibi olub.

*Unutsaq, unudularıq*

# Azərbaycan boksunun rinq ustaları

***Daimi oxucularımız yaxşı xatırlayar ki, bir müddət əvvəl qəzetdə "Azərbaycan boksunun unudulmaz simaları" rubrikası altında yazılar dərc olunmuşdu. Biz bununla uzaq keçmişə, boksun şanlı tarixinə ətraflı nəzər salmışdıq.***

***İndiki nəslin bir sıra boksçuları, eləcə də, bəzi məqşqçilər nisbətən yaxın keçmişimizin rinq ustaları barəsində çox az məlumata malikdirlər. "Olimpiya dünyası" qəzeti uzun müddətdir ki, bu barədə yazıları öz səhifələrində dərc edir. "Azərbaycan boksunun rinq ustaları" rubrikası altında boksçularımızla bağlı yazıları yenidən oxuculara təqdim edirik.***

## Ramil Əlif oğlu Nəzərov

Ramil Nəzərov 1976-cı il mayın 12-də Siyəzən rayonunda zəhmətkeş ailədə dünyaya gəlib. O zaman rayonun tanınmış boks mütəxəssisi SSRİ idman ustası Vahid Əhmədov məktəbdə tənəffüs zamanı bir-biri ilə çəkişən uşaqlar arasında öz yaşıdlarından seçilən Ramili görüb, boks üzrə məşq zalına dəvət edib. O gündən bu şagird böyük həvəslə müəlliminin göstərdiyi boks fəndlərini dəfələrlə təkrar edir və idman zalından ən sonda çıxırdı.

Beləliklə, gənc idmançı bir müddətdən sonra yarışlara ham hazır olduğunu hiss etdikdən sonra məşqçiyə müraciət edir.

1992-ci ildə Ramil respublika birinciliyində ilk dəfə iştirak edərək II yer tutur. O, 1993-cü ildə bu nəticəni təkrarlayıb, növbəti ildə isə çempion adını qazanıb. Həmin ildə gənc idmançı Türkiyənin İstanbul şəhərində keçirilən Dünya birinciliyində ölkəmizi təmsil edib və V yerlə kifayətlənib. Idman ustası olan Ramil Nəzərov 1998-ci ildə AZDBTİ-nın bitirib. Hazırda Şabranda boks üzrə məşqçi vəzifəsində çalışır.

## Vüqar Məmmədəli oğlu Məmmədov

Vüqar Məmmədov 1975-ci il fevral 27-də Gürcüstanın Qardabanin rayonunda anadan olub. 1991-ci ildə Qardabani rayonunun Soğanlıq kəndindəki orta məktəbi bitirdikdən sonra Bakıda universitetdə təhsilini davam etdirib. 1996-1997-ci illərdə hərbi xidmətdə olub. Gənc yaşlarından "Məhsul" kənd könüllü idman cəmiyyətində boksla məşğul olmağa başlayıb. Onun məşqçısı Vaqif Kazımov olub. Məşqçı tez bir zamanda tələbəsinə boksun incəliklərini öyrədərək onu idman ustası səviyyəsinə çatdırıb. O dəfələrlə Azərbaycan çempionatlarının, Ümmumittifaq birinciliklərin qalibi və mükafatçısı olub.

Çexiya, Polşa, Ukrayna və Rusiyada keçirilən ümümittifaq boks turnirlərində Azərbaycanı təmsil edib.

Əmək fəaliyyətinə 2000-ci ildə "Məhsul" KKİC-də məşqçi kimi başlayan Vüqar Məmmədov 2003-cü ildə isə fəaliyyətini "Gömrükçü" idman klubunda davam etdirib. Hazırda Azərbaycanın yeniyetmələrdən ibarət yığma komandasının məşqçisidir. Vüqar Məmmədov Azərbaycan Respublikasının Əməkdar məşqçisi adına layiq görülüb.

## Qismət Əlikişi oğlu Novruzov

Qismət Novruzov 1953-cü il iyulun 23-də Neftçala rayonunun Ban qəsəbəsində anadan olub. AZDBTİ-nı bitirib. Tələbəlik illərində "Neftçi" və "Spartak" idman cəmiyyətlərində boksla məşğul olan idmançı tez bir zamanda respublika yığma komandasının heyətinə daxil olub.







Boksla məşğul olduğu müddət ərzində Ümumittifaq "Spartak" idman cəmiyyəti mərkəzi şurasının birinciliyində gümüş, Rovno, Jdanov, Lvov, İvano-Frankovsk şəhərlərində keçirilən Ümumittifaq turnirlərində bürünc medallara layiq görülüb. Azərbaycan çempionatının qalibi, Ümümittifaq Həmkarlar İttifaq Mərkəzi Şurası kubok yarışlarının iştirakçısı olub və respublikamıza qələbə xalları qazandırıb.

Onun məşqçisi Əməkdar məşqçi Tofiq Babanlı olub. Qismət Novruzov göstərdiyi idman nəticələrinə görə SSRİ idman ustası adına layiq görülüb.

Rinqdə peşəkar fəaliyyətini başa vurduqdan sonra Q.Novruzov hakimlik fəaliyyətinə başlayıb. Əvvəlcə EABA, sonra isə AİBA beynəlxalq hakimlik dərəcəsi alıb.

Əmək fəaliyyətinə Sumqayıt şəhər UGİM-ində məşqçi-müəllim kimi başlayıb. 1993-1996-cı illərdə Sumqayıt şəhərinin boks üzrə başqa məşqçisi olub.

1996-cı ildən bu günə kimi Sumqayıt şəhəri 2 saylı UGİM-də direktor vəzifəsində çalışır.

## Rövşən Nəsrəddin oğlu Qasımov

Rövşən Qasımov 1963-cü il sentyabrın 13-də Dəvəçi rayonunda (indiki Şabran) anadan olub. Boks idman növü ilə gənc yaşlarında "Məhsul" KKİC-də Əməkdar məşqçilər Vaqif Kazımov və Tofiq Babanlının rəhbərliyi altında məşğul olub. 1977-ci ildə boks idman növünün sirlərinə yiyələnməyə başlayan idmançı, iki il sonra paytaxt və respublika yarışlarında uğurlar qazanıb. Respublikadan kənarda keçirilən ümumittifaq turnirlərində özünü sınayıb və mükafatçılar sırasında yer alıb. Göstərdiyi idman nəticələrinə görə SSRİ idman ustası adına layıq görülüb.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ibtidai hərbi və fiziki təlim fakültəsini bitirib. 1992-2000-ci illərdə Respublika Hərbi Komissarlığının rayon şöbəsində xidmət edib, mayor hərbi rütbəsində təxris olunub. Müəyyən fasilədən sonra yenidən idmana qayıdıb. 2011-ci ildən Şabran rayon Gənclər və İdman İdarəsinin nəzdindəki UGİM-də boks üzrə məşqçi-müəllim kimi fəaliyyət göstərir. Onun səyi və təşəbbüsü nəticəsində rayonda Boks Federasiyasının şöbəsi yaradılıb və bu quruma sədr seçilib. Rayonun idman və ictimai siyasi işlərində fəal iştirak edir.

*(ardı var)*

***Tofiq Babanlı,***
***Azərbaycan Respublikasının Əməkdar idman xadimi, dosent***

*Müsahibə*

# "“Olimpiya dünyası” qəzetinin idman nəşrləri arasında özünəməxsus yeri vardır"

Sağlam cəmiyyətin əsasını informasiyanın dolğunluğu və qərəzsizliyi təşkil edir. Bu yükü isə KİV öz üzərinə götürür. Bu yükün öhdəsindən gəlmək üçün KİV-ə peşəkar və bacarıqlı jurnalist kollektivi gərəkdir. Bu xüsusiyyətlərin formalaşması üçün isə peşəkar səviyyədə təhsilin olması vacibdir.

Sağlam və dünyəvi düşüncəyə malik olan media nümayəndələri cəmiyyətdə demokratik dəyərlərin formalaşmasında və təbliğində vasitəçi olurlar.

Bunu ölkənin tanınmış mütəxəssisləri, KİV-də özünəməxsus nüfuzu olan jurnalistləri də təsdiq edirlər.

Bakı Dövlət Universtetinin jurnalistika fakultəsinin Nəzəriyyə və Təcrübə kafedrasının müdiri, professor Cahangir Məmmədli də peşəkar jurnalistlərin hazırlanmasında böyük nüfuza malik olan pedaqoqlardan biridir. Elə bu məqsədlə Cahangir müəllimlə görüşüb, bizi maraqlandıran suallara onun münasibətini öyrəndik.



***- Cahangir müəllim, müasir dövrdə jurnalistika sürətlə inkişaf edir. Bu sürət Azərbaycanda hiss olunurmu?***

- Bu gün yaşadığımız dünya informasiya texnologiyalarının inkişafı üzərində qurulub, desək, yanılmarıq. Cəmiyyətdə hər bir sahə bu texnologiyaların imkanlarından yararlanır. Azərbaycan da bu sahədə inkişafa can atan ölkələrdən biridir. Ölkəmizdə texnologiyaların inkişafı KİV-in sürətli inkişafına müsbət təsir göstərir. Biz bunu dünya təcrübəsində açıq-aşkar görürük. Bəli, bu gün Azərbaycanda jurnalistika yeni dövrə qədəm qoyub. Müasir imkanlar sayəsində bu sahə xeyli təkmilləşib.

Dünən biz Sovet dövrünün ciddi senzura qadağalari ilə fəaliyyət göstərirdiksə, bu gün artıq müstəqil Azərbaycanda kütləvi informasiya vasitələrinin hüquqi bazası formalaşib. Biz sözün əsl mənasında deyə bilərik ki, Ölkəmizdə müstəqil və demokratik mətbuat qurulub. Bu sahə ciddi şəkildə inkişaf etməkdədir. Respublikamızda qəbul olunan Kütləvi İnformasiya Vasitələri haqqında Qanun Avropa Şurasının aparıcı ekspertləri tərəfindən müzakirə olunub, yekdilliklə bəyənilib. Bir daha qeyd edim ki, texnologiya bütün dünyada jurnalistikanın, KİV-in inkişafını şərtləndirən ən vacib amillərdən biridir.

Azərbaycanda bu gün təxminən 4 milyona yaxın internet istifadəçisi var. Əminliklə deyə bilərəm ki, internet Azərbaycanda müstəqil və azad formatda, demokratik şəraitdə fəaliyyət göstərir. İnsanların informasiya alması üçün heç bir maneə və senzura mövcud deyil.

***- Cahangir müəllim, sizcə, jurnalistikada idman mövzusu özünün əksini necə tapır?***

- Keçmişə nəzər salsaq, görərik ki, Sovet dövrünün özündə də idman qəzetləri nəşr olunurdu. Bundan başqa əksər qəzetlərin demək olar ki, son səhifəsi idman xəbərləri ilə bağlı olurdu. Əgər biz inkişafdan danışırıqsa, onda qeyd etməliyik ki, idman sürətlə inkişaf edir. Ölkə başçısı cənab İlham Əliyevin göstərişi və təklifləri ilə regionlarda idman kompleksləri yaradılıb. Bu idman kompleksləri Azərbaycanda idmanın inkişafına son dərəcə böyük diqqət yetirildiyini özündə ehtiva edir. Bütün sahələrdə uğur qazanan ölkəmizdə I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 və futbol üzrə müxtəlif beynəlxalq yarışlar keçirilib. Bir çox beynəlxalq idman yarışlarına Azərbaycan ev sahibliyi edib və bunun üçün də ölkəmizdə hər cür şərait var. Çox istəyərdim ki, idman jurnalistikası buna ekvivalent olsun. Yəni idman jurnalistikası idmanda olan bu inkişafı tam ifadə etmək qüdrətinə malik olsun. Bunu etiraf etmək lazımdır ki, qəzet dünyası yavaş-yavaş elektron media ilə əvəz olunur. Azərbaycanda fəaliyyət göstərən "Olimpiya dünyası" qəzeti idmanın çox ciddi istiqamətləri ilə məşğuldur və bu qəzet Olimpiya leksikologiyasına yaxın dərəcədə fəaliyyət göstərir. Azərbaycanda idmana dövlət qayğısı, idmana dövlət münasibəti həm də mediada idmana münasibəti formalaşdırıb və Azərbaycan bir idman ölkəsi olaraq, medianın diqqət mərkəzindədir.

***- Sizcə, yazılı mətbuat jurnalistikanın digər formalarından nə ilə fərqlənir?***

- Qəzet jurnalistikası televiziya və digər media formaları ilə müqayisədə bir növ susqunluq dövrü yaşamaqdadır. Hətta Amerika kimi bir ölkədə "New York Times" kimi qəzet koorporasiyası 3 il bundan əvvəl proqram təsis edərək elektron variantda sistemə keçmişdi. Nəzərdə tutulurdu ki, qəzetləri online sistemlə buraxsınlar. Lakin bu mümkün olmadı. Əgər qəzeti televiziya ilə müqayisə etsək, görəcəyik ki, televiziya hər hansı bir hadisəni 1-2 dəqiqəlik qısa süjetlərlə təqdim edir. Qəzet isə mahiyyəti itirmədən ətraflı məlumat yayır.

Mən nəzəriyyə ilə məşğul olan bir mütəxəssis kimi hesab edirəm ki, qəzeti dünyanın əlindən almaq mümkün olmayacaq. Onun qarşısında nə qədər güclü imkanlara malik televiziya, elektron sistem olursa olsun, "qəzetin iyi" oxucunun burnuna gəlməsə, o informasiyanı qavramaq, diqqət yetirmək mümkün deyil.

Qəzetçilər və müəyyən dərəcədə yaşlı nəsil bununla yəqin ki, razılaşar.

***- İdman jurnalistikasının ayrıca tədrisi barəsində planlar varmı?***

- Bakı Dövlət Universiteti Azərbaycanda bu günə qədər jurnalist kadrı yetişdirən yeganə mərkəz olub. Sonralar özəl univesitetlərdə də jurnalistika fakültəsi yaradıldı. Bu, uzun çəkmədi. Kadr çatışmazlığı səbəbindən özəl universitetlərdə həmin fakültələr ləğv edildi. İndi bizdə və Azərbaycan Dillər Universitetində (ADU) jurnalistikanın ingilis dilli bölmələri yaradılıb. Bu sahədə böyük planlar var. Yaxın gələcəkdə fakültəmizdə ixtisaslaşmada yeniliklər gözlənilir. Ola bilsin ki, idman jurnalistikası bu ixtisasların içərisində liderlik edəcək, birinciliyə yüksələcək.

***- Cahangir müəllim, sonda "Olimpiya dünyası" qəzeti haqqında fikirlərinizi eşitmək maraqlı olardı.***

- Sizin qəzetinizin böyük oxucu kütləsi var. Artıq 17 ildir ki, "Olimpiya dünyası" qəzeti çox böyük nüfuz qazanıb. Olimpiya dünyası" qəzetinin idman nəşrləri arasında özünəməxsus yeri vardır. Məlumdur ki, hər bir qəzet özünün tipoloji xarakterinə görə, həm də, özünə ad seçməlidir. Ölkədə genişlənən idman və Olimpiya Hərəkatı "Olimpiya dünyası" qəzetinin obyektidir. Qəzetiniz təkcə Olimpiya Hərəkatını təbliğ etməklə kifayətlənmir. Bu qəzetdə dünya futbolu və digər idman növləri ilə bağlı ciddi və təhlili materiallar yer alır. "Olimpiya dünyası" qəzeti qədər Azərbaycan və dünya idmanı barəsində geniş, dolğun informasiya yayan nəşrlərin sayı çox azdır. Dil üslubu da jurnalistikanın tələblərinə cavab verir. Yaradıcı heyət də bacarıqlı və savadlı kadrlardan təşkil olunub. Kollektivin əksər hissəsi bizim universitetin məzunları olub. Bu, bizi çox sevindirir. Hər birinizə uğurlar diləyirəm. İşinizdə müvəffəqiyyət və yeni nailiyyətlər arzulayıram.

***Natavan Hacıyeva***

## Yaxtaçımız beynəlxalq yarışlarda mübarizə aparıb

Azərbaycan idmançısı, yaxtaçı Kristina Kərimova Sloveniyada keçirilən beynəlxalq "Easter Regatta" yarışlarında yüksək nəticə göstərib. Kristina Kərimova 139 yaxtaçının iştirak etdiyi yarışda dördüncü yeri tutub.

Qeyd edək ki, 2014-cü ildən bəri Azərbaycan Yelkən İdmanı Federasiyasının maddi bazası fəal şəkildə möhkəmləndirilir. Burada peşəkar məşqçi korpusu formalaşıb, yeni idmançılar cəlb edilib, xaricdən gəlmiş mütəxəssislərin rəhbərliyi ilə məşqlər keçən "Optimist" və "Laser" komandaları yaradılıb.

Bu və digər uğurlar Azərbaycanda idmanın inkişafına dövlət səviyyəsində göstərilən böyük diqqət və dəstək sayəsində mümkün olub.

Azərbaycanlı gənc idmançının bu uğurları belə deməyə əsas verir ki, qarşıda bizim yaxtaçıları daha böyük nailiyyətlər gözləyir.




## "Neftçi idman klubu" İB

### Güləş

Türkiyənin Gebze şəhərində keçirilən sərbəst, yunan-Roma və qadın güləşi üzrə yeniyetmələr arasında 21-ci "Zəfər Kuboku" beynəlxalq turnirinə yekun vurulub. Yarışda Azərbaycan, Türkiyə, İran, Gürcüstan, İtaliya, İsveç, Rusiya , Türkmənistan, Qazaxıstan, Rumıniya, Macarıstan, Bolqarıstan, Bosniya və Herseqovina, Makedoniya, Argentina, Hollandiya və Qırğızıstan idmançıları mübarizə aparıblar.

"Neftçi İdman Klubu"nun Azərbaycan millisinin heyətində yer almış güləşçilərindən ikisi mötəbər turnirin mükafatçıları sırasına düşməyə müvəffəq olub. Sərbəst güləşçilərimizdən 55 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Əbülfəz Nəsirov bütün rəqibləri üzərində qələbə qazanaraq qızıl medala yiyələnib. Yeniyetmə qızların yarışında isə Şahanə Nəzərova (43 kq) yalnız həlledici final qarşılaşmasında məğlub olub və gümüş medala layiq görülüb.




### Futzal

Futzal üzrə Azərbaycan çempionatının Yüksək Liqasında 22-ci turun oyunları keçirilib.

"Neftçi İdman Klubu"nun futzalçıları bu turda "Yasamal" komandası ilə üz-üzə gəliblər. Bakı İdman Sarayında təşkil olunan qarşılaşma komandamızın 6:2 hesablı qələbəsiylə yekunlaşıb. Rəqib qapısından topları Rüfət Balakişiyev (2:26, 28:43), Vüsal İsayev (5:43), Vahib Xocayev (7:25), Oruc Baxşəli (19:58) və Tural Qurbanov (27:26) keçiriblər.

### Boks

Yeniyetmələr arasında keçirilən boks üzrə Azərbaycan birinciliyi başa çatıb. Respublika Boks Mərkəzində təşkil olunan yarışda 295 dəri əlcək sahibi 17 çəki dərəcəsi üzrə mübarizə aparıb.

Klubumuzun yetirmələri ölkə birinciliyinin 10 medalına (2 qızıl, 5 gümüş, 3 bürünc) yiyələniblər. Boksçularımızdan 43 kiloqram çəkidə çıxış edən Səid Abdullayev və Kamal Abdullayev (+76 kq) bütün döyüşlərdən qalib ayrılaraq Azərbaycan çempionu adını qazanıblar. Xəyal Nəzərov (46 kq), Aslan Quliyev (48 kq), Bəylər Bayramov (56 kq), Əli Həmidov (65 kq), Aqil Zülfüqarov (68 kq) gümüş, Tural Sarıyev (44,5 kq), Ədalət Əliyev (50 kq) və Əli Həsənov (73 kq) isə bürünc medala sahib olublar.

Qeyd edək ki, yeniyetmə boksçularımız komanda hesabında ikinci yeri tutublar.

### Futbol

Futbol üzrə Azərbaycan çempionatının I Divizionunda 22-ci turun oyunlarına start verilib.

"Qaradağ Lökbatan" bu turda İmişlidə "Mil-Muğan"ın qonağı olub. Heydər Əliyev adına İmişli şəhər stadionunda təşkil olunan oyunda tərəflər hərəyə bir xalla kifayətlənib. Matçın 44-cü dəqiqəsində komandamız Ruslan Voronsovun vurduğu qolla önə keçib. Qarşılaşmanın 71-ci dəqiqəsində isə "Mil-Muğan" hesabı bərabərləşdirib-1:1. Rəqibin futbolçusu Rəşad Orucov komandasını məğlubiyyətdən xilas edib.

***"Neftçi İdman Klubu"***
***İctimai Birliyinin mətbuat xidməti***

# Formula-1

## Marşallar üçün təlimlərə start verilib

Aprelin 27-29-da Bakıda keçiriləcək Formula-1 Azərbaycan Qran-Prisinə hazırlıq işləri davam edir. Yarışların təşkili və həyata keçirilməsində əvəzsiz rolu olan marşalların hazırlığı hər il olduğu kimi, "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin və Bakı Marşal Klubunun qarşısında duran ən ümdə məsələlərdəndir. Məhz bu istiqamətdə marşalların bacarıq və təcrübələrinin artırılmasına əsaslanan tədbir və təlimlərin təşkilinə start verilib.

Ənənəvi olaraq hər il yanğından mühafizə və xilasetmə üzrə ixtisaslaşmış marşallar Fövqəladə Hallar Nazirliyinin göstərdiyi qayğı və dəstəyin nəticəsində aprelin ilk günlərinə təsadüf edən təlimlərdə iştirak edirlər. Nazirlik artıq bir neçə ildir, yüksək səviyyəli mütəxəssislər tərəfindən tədris olunan təlimlərlə yanaşı, yarışlar zamanı təhlükəsizlik və xilasetmə tədbirlərinin təmin olunmasında da çox mühüm rol oynayır. Fövqəladə Hallar Nazirliyinin Akademiyasında təşkil olunan üçgünlük təlimlərdə, ümumilikdə 180 marşal nəzəri və praktik hissələrdən ibarət təlimlərdə iştirak edir.

Aprelin 2-də akademiyanın xüsusi ixtisaslı təlim tədris heyəti iştirakçılara yanğın təhlükəsizliyi haqqında biliklərin aşılanması, yan-



ğının qarşısının alınması və xilasetmə tədbirlərinin təşkili istiqamətində bacarıqların möhkəmlənməsinə dair təqdimatlarla çıxış ediblər. Bundan əlavə, həmin sahələr üzrə istifadəsi vacib olan səciyyəvi texnika və avadanlıqla davranış və lazımi anlarda tətbiq qaydalarının əsasları təlim iştirakçılarına əyani vasitələrlə çatdırılıb.

## Məşhur DJ Afrojack Formula 1 həvəskarları üçün konsert verəcək

Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində aprelin 27-də "Jamiroquai"nın iştirakı ilə təşkil olunacaq axşam konsertinin ardınca məşhur DJ Afrojack idmansevərlərə coşqulu gecə təqdim edəcək. Əvvəlki illərdən fərqli olaraq bu il konsert tədbirləri və ardınca davam edəcək əyləncəli gecə proqramları "Baku Crystal Hall"da keçiriləcək.



"Grammy" mükafatına sahib Afrojack bəstəkarlığı ilə də məşhurdur. O, elektronik, hip-hop və pop kimi müxtəlif musiqi janrları arasında asanlıqla keçidlər yarada bilən peşəkar sənətçidir. Afrojack yalnız öz treklərinə görə yox, həm də məşhur müğənnilər üçün bəstələdiyi mahnılara görə tanınıb. Onun bəstələdiyi treklər sırasına Beyonsun "Run the world (Girls)", Madonnanın David Quetta ilə birlikdə ifa etdiyi "Revolver" və Ne-Yo ilə Pitbullun birgə səsləndirdikləri "Give me everything" mahnıları daxildir.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin kommersiya şöbəsinin rəhbəri Bülənt Özərdim məşhur DJ-in Bakıya gəlişindən məmnunluğunu ifadə edərək deyib: "Builki Azərbaycan Qran-Prisinin dünya ulduzlarının iştirakı ilə təşkil olunacaq zəngin əyləncə proqramına Afrojack kimi tanınmış DJ-in daxil edilməsi olduqca sevindirici haldır. Afrojack elektronik rəqs musiqisinin ən nüfuzlu və istedadlı sənətçilərindəndir. O, cümə günü gecə saatlarında səhnəyə çıxaraq yarış həvəskarlarını öz məşhur trekləri ilə əyləndirəcək. Mən şəxsən bundan daha yaxşı yarış təsəvvür edə bilmirəm".

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# İdmanın inkişafında klub və cəmiyyətlərin rolu əvəzsizdir

***İnsanın özünü, öz maddi və mənəvi potensialını maksimum reallaşdıra bilməsi üçün ona, ilk növbədə, fiziki sağlamlıq lazımdır. Bu baxımdan "Sağlam bədəndə sağlam ruh olar" ifadəsi təsadüfən yaranmayıb. Doğrudur, bu fikri aksioma kimi qəbul etmək düzgün olmazdı. Yəni fiziki sağlamlıq heç də mənəvi sağlamlıq üçün kifayət deyildir. Lakin danılmaz bir fakt vardır ki, sağlamlıq insan həyatı, yaşamı üçün ən vacib şərtdir. Bu, kimliyindən asılı olmayaraq hər kəsə aiddir.***

Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün fəaliyyət sahələri, o cümlədən idmanın inkişaf perspektivləri ciddi şəkildə nəzərə alınmış, ölkəmizin bütün bölgələrində idman kompleksləri, qurğular, meydançalar salınmış, iri idman sağlamlıq mərkəzləri yaradılmışdır. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi dövlətimizin əsas məqsədlərindən biridir. Şübhəsiz ki, keçmiş SSRİ dövründə də Azərbaycanda bədən tərbiyəsi və idman sahəsi diqqət mərkəzində olub. Xüsusilə, 1970-80-ci illərdə respublikamızda bu sahənin əhəmiyyətli maddi-texniki bazası yaradılıb, bədən tərbiyəsində kütləvilik əldə olunub. Həmin dövrdə böyük əzmi, iradəsi, istedadı sayəsində dünya idmanı tarixinə parlaq səhifələr yazan atletlərimizin hər biri ilə qürur duyuruq. Müstəqillik illərində idman sahəsinə daha yüksək diqqət və qayğı göstərilir. Hazırda Azərbaycanın istənilən şəhər, kənd və qəsəbələrində müasir üslubda inşa edilmiş idman qurğularına rast gəlmək mümkündür. Bu, bir daha sübut edir ki, Azərbaycan dövləti gənc nəslin fiziki sağlamlığını ən vacib məsələ kimi diqqətdə saxlayır. Gənclərin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsi də dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Ümummilli lider Heydər Əliyev ölkə həyatının müxtəlif sahələrində əldə olunan nailiyyətlər sırasında idmançılarımızın beynəlxalq arenalarda qazandıqları uğurları xüsusi vurğulayaraq demişdir: "Biz bu gün müstəliq dövlətimizi qurarkən gələcək nəsillərimiz barədə düşünməliyik. Çalışmalıyıq ki, bizdən sonra gələn nəsillər fiziki cəhətdən daha da möhkəm, əqli cəhətdən daha da sağlam olsunlar. Biz buna nail olmaq üçün idmana, bədən tərbiyəsinə çox ciddi fikir verməliyik. İdman sahəsində beynəlxalq yarışlarda əldə olunan nailiyyətlər çox qiymətlidir. Onların qiyməti Azərbaycan xalqının təkcə fiziki cəhətdən yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirməkdən ibarət deyil, həm də müstəqil Azərbaycanı dünyada tanıtmaqdan ibarətdir".

## Olimpiya və dünya çempionları yetişdirən idman ocağı

Ölkəmizdə idman yüksələn xətlə inkişaf edir. Dövlətimizin bu sahəyə göstərdiyi xüsusi qayğı öz bəhrəsini verir. Respublikamızın hər yerində idman qurğuları yaradılıb. Bölgələrdə fəaliyyət göstərən Olimpiya idman kompleksləri və digər idman ocaqlarında hər cür şərait mövcuddur. Məhz buna görədir ki, insanların idmana marağı xeyli artıb.

Müxtəlif növlər üzrə keçirilən beynəlxalq yarışlarda əldə olunan nailiyyətlərdə idman klublarının və cəmiyyətlərinin də xüsusi rolu var. "Spartak" Könüllü Bədən Tərbiyəsi İdman Cəmiyyəti ("Spartak" KBTİC) də bu sahənin inkişafında xüsusi pay sahibidir. Cəmiyyət öz fəaliyyətini təkcə idmanda uğurların əldə olunmasına deyil, həm də gənclərin mənəvi cəhətdən inkişafına yönəldib.



Peşəkar idmançıların yetişmsində önəmli rol oynayan "Spartak" KBTİC 1935-ci ildə yaradılıb. Bakı şəhərinin 30 bədən tərbiyəsi kollektivini özündə birləşdirən cəmiyyət fəhlə və qulluqçular arasında bədən tərbiyəsi və idmanın təbliğinə, onların sağlamlığına xüsusi diqqətlə yanaşır.

Azərbaycanda bədən tərbiyəsi və idman hərəkatının inkişafında əvəzsiz xidmətləri olan "Spartak" KBTİC-nin Respublika Şurasının apardığı məqsədyönlü fəaliyyət nəticəsində beynəlxalq aləmdə ölkəmizin idman şərəfini ucaldan bir çox məşhur idmançılar məhz burada ilk addımlarını atıb. Olimpiya çempionları - həndbolçular Rəfiqə Şabanova, Lyudmila Şubina, Larisa Safkina, Xoşməramlı Oyunların qalibi Esmira Əsgərova, atletika üzrə Avropa rekordçusu Valeri Sereda, Avropa çempionu Nina Brintseva, sərbəst güləş üzrə dünya çempionatının gümüş mükafatçısı və Dünya kubokunun sahibi Telman Paşayev məhz "Spartak"ın yetirmələridirlər. Eyni zamanda, dəfələrlə SSRİ xalqları spartakiadalarının və çempionatlarının mükafatçısı, Avropa Həndbol Federasiyası kubokunun qalibi olan "Avtomobilçi" qadın həndbol komandası, SSRİ Xalqları Spartakiadasının və çempionatının bürünc mükafatçısı "Rabitəçi" qadın otüstü hokkey komandasının heyəti də "Spartak"çılardan ibarət olub.




"Spartak" KBTİC-i 1987-ci ilin martında maliyyə səbəblərindən ləğv edilib. Lakin təşkilat 1993-cü ilin mayında qarşıya çıxan çətinliklərə baxmayaraq "Spartak"ın veteranlarının, idmançılarının, məşqçilərin və bir sıra müvafiq həmkarlar ittifaqları təşkilatlarının köməyi ilə yenidən bərpa edilib və "Spartak" KBTİC-nin Respublika Şurası adı altında fəaliyyət göstərməyə başlayıb. Cəmiyyətin Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Lənkəran şəhər şuraları da bərpa olunub. Öz tarixi ənənələrinə sadiq qalan "Spartak" KBTİC-in Respublika Şurası yeni-yeni idmançılar və məşqçilər hazırlanmasına xidmət edən tədbirlər həyata keçirib. Cəmiyyət öz işini Azərbaycanın iqtisadi, siyasi və sosial həyatında baş vermiş dəyişikliklərə uyğun qurub.

Hazırda "Spartak" İdman Cəmiyyətində ağırlıqqaldırma, atletika, güllə atıcılığı, boks, bədii gimnastika və yunan-Roma güləşi növləri üzrə məşqlər keçirilir. İdman ocağında 7-si Əməkdar məşqçi olmaqla, ümumilikdə, 23 məşqçi-müəllim fəaliyyət göstərir. Burada 470-ə yaxın uşaq və gənc müxtəlif idman növlərinin sirlərinə yiyələnir. İdman cəmiyyəti haqqında daha ətraflı öyrənmək, həmçinin burada keçirilən məşqlərin keyfiyyəti, gələcək planlar və nailiyyətlər barədə məlumat əldə etmək üçün "Spartak" İC-in sədr müavini Yavər Hacıyevlə həmsöhbət olduq.

Yavər müəllim, əvvəlcə, cəmiyyətin keçirdiyi tədbirlər haqqında danışdı: "Biz ənənəvi olaraq il ərzində "Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi"nin kontingenti arasında Novruz bayramına həsr olunmuş stolüstü idman növləri üzrə yarışlar keçiririk. Bu tədbir Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyəti və "Spartak" KBTİC-İctimai Birliyinin İdarə Heyətinin birgə qərarına əsasən təşkil olunur. Yarışların proqramına şahmat, dama, nərd, darts, gücsınama daxildir. Turnir çərçivəsində keçirilən şahmat və dama oyunlarında həm kişilər, həm də qadınlar mübarizə aparırlar. Digər üç növdə isə zərif cinsin nümayəndələri iştirak etmirlər.

Bu yaxınlarda fiziki qüsurlu gənclər arasında turnir təşkil etdik. "Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi"ndə keçirilən yarışda 6 aylıq təlim kurslarında iştirak edən 120 gənc iştirak etdi. Müxtəlif növlər üzrə keçirilən yarışlarda ilk üç yeri tutan fiziki məhdudiyyətli idmançılar "Spartak" İdman Cəmiyyəti, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanı, həmçinin pul mükafatları ilə təltif edildilər. Qeyd edim ki, Novruz bayramı münasibətilə təlim kurslarının digər iştirakçılarının da hər birinə pul mükafatı verildi. Bundan başqa "Spartak" İdman Cəmiyyətinin təşkilatçılığı ilə 1994-cü ildən bu yana ənənəvi olaraq hər il rabitə işçiləri arasında spartakiada keçirilir. Lakin ötən il rabitə strukturunda dəyişiklik edilməsi səbəbindən yarış baş tutmadı. Bu il yenidən spartakiadanın keçirilməsi əsas planlarımızdan biridir. Çalışacağıq ki, bu turniri yüksək səviyyədə həyata keçirək".

## İdman ocağının yetirmələri uğurları ilə fərqlənirlər

"Spartak" İdman Cəmiyyətinin yetirmələri hər il müxtəlif yarışlarda iştirak edirlər. İdman ocağının təmsilçiləri təkcə ölkədaxili yarışlarda deyil, həm də beynəlxalq turnirlərdə uğurları ilə diqqət çəkirlər. Ölkə idmanı üçün uğurlu nəticələrlə yadda qalan 2017-ci il "Spartak" İC-in yetirmələri üçün də düşərli olub. Belə ki, ötən ilin yanvar ayında idman ocağının yetirməsi Murad Abbasov (54 kq) yunan-Roma güləşi üzrə Müşfiq İsayevin xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə bürünc medala sahib çıxıb. Spartak İC-in pəhləvanları Gürcüstanın Batumi şəhərində keçirilən D.Bedinadze adına beynəlxalq turnirdə də fərqlənməyi bacarıblar. İdman ocağının təmsilçiləri iki qızıl, bir gümüş və bir bürünc medal əldə ediblər. Komandamıza qızıl medalları Murad Abbasov (54 kq) və Laçın Vəliyev (85 kq) qazandırıblar. Cavidan Məmmədli (38 kq) ikinci Nihad Quluzadə (46 kq) isə üçüncü yeri tutub. Noyabrın 10-12-də idman cəmiyyətinin yetirməsi Davud Məmmədov Gürcüstanda təşkil olunan R.Abaşidze adına beynəlxalq turnirdə 42 kq çəki dərəcəsində bürünc medala sahib olub. Respublikadaxili yarışlarda isə cəmiyyətin yunan-Roma güləşçiləri Azərbaycan çempionatında mükafatçılar sırasında qərarlaşıblar. İdman ocağının təmsilçisi Royal Mirzəyev (130 kq) fəxri kürsünün üçüncü pilləsində yer alıb. Yunan-Roma güləşi üzrə 2000-2002-ci illər təvəllüdlü oğlanlar arasında Azərbaycan birinciliyində iştirak edən cəmiyyətin yetirmələrindən Murad Abbasov (50 kq) və Fərid Qafarov (54 kq) üçüncü yeri tutublar. Ötən ilin mart ayında tələbələr arasında təşkil olunan Azərbaycan birinciliyində isə Semral İbadov (84 kq) və Elvin Abbaslı (98 kq) bürünc medala yiyələniblər.

"Spartak" İC-in ağırlıqqaldıranları da öz uğurları ilə yunan-Roma güləşçilərindən heç də geri qalmayıblar. Bu növ üzrə təşkil olunan yarışda cəmiyyətin yetirmələri bir sıra uğurlar əldə ediblər.

Yavər müəllimin bildirdiyinə görə, idman cəmiyyətinin ağırlıqqaldıranları müntəzəm olaraq uğurlu nəticələr qazanırlar. Əldə olunan nailiyyətlərdən danışarkən o, vurğuladı ki, fevralın 17-19-da 2000-2001 və 2002-2004-cü illər təvəllüdlü oğlan və qızlar arasında keçirilən respublika birinciliyində Elvin Ağayev (62 kq) ikinci olub. Martın 1-4-də keçirilən ağırlıqqaldırma üzrə Azərbaycan çempionatında isə Nailxan Nəbiyev birinci, Rauf Nəbiyev isə ikinci yerə sahib olub. Bu uğurlardan danışarkən ötən ilin mart ayında İranın Havza şəhərində keçirilən beynəlxalq turniri xüsusi qeyd etmək olar. Belə ki, ən güclü atletlərin mübarizəsində adıçəkilən idman ocağının təmsilçisi Sənan Mirzəyev 85 kq çəki dərəcəsində bürünc medala sahib çıxıb. Ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında "Spartak" İC-i təmsil edən Fidan Abdulrəhmanova IV yeri tutub.

Dekabrın 22-23-də Bakıda F.Şahbazovun adına keçirilən XVI beynəlxalq turnirdə isə Sənan Mirzəyev (85 kq) qızıl, Elvin Ağayev (69 kq) gümüş, Həmid Qocayev (85 kq) isə bürünc medala yiyələnib.

Ötən il "Spartak" idman cəmiyyətinin bədii gimnastları da kifayət qədər uğurlu nəticələr əldə ediblər. Belə ki, aprelin 29-30-da İtaliyanın Morbegno şəhərində bədii gimnastika üzrə beynəlxalq turnir keçirilib. Turnirdə "Spartak" İC-in yetirmələri 2 qızıl, 3 gümüş və 2 bürünc medal qazanıblar. İyunun 15-18-də Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq turnirdə isə "Spartak"ın bədii gimnastları Gülçöhrə Cəfərova qızıl, Leyla Yusubova isə gümüş medal qazanıblar. Bədii gimnastika üzrə Lüksenburq şəhərində keçirilən yarışda da idman ocağının zərifləri mükafatçılar sırasında qərarlaşmağa müvəffəq olublar. Belə ki, Ayan Qasımov birinci, Nigar İsmayılzadə və Sona Rəhmanova isə ikinci yerə layiq görülüblər.

Ötən il, həmçinin "Spartak"ın atletləri üçün də düşərli olub. Adıçəkilən idman ocağının yetirmələri həm ölkədaxili, həm də beynəlxalq turnirlərdə fərqlənməyi bacarıblar. Beynəlxalq uğurlardan danışarkən iyunun 20-23-də Maltada komandalar arasında keçirilən Avropa çempionatını qeyd etmək olar. Həmin yarışda Alyona Xeyrutdinova 3-cü yerə sahib olub. Fevralın 3-4-də atletika üzrə keçirilən Azərbaycan çempionatında Lamiyə Vəliyeva birinci, Zeynal Misgərli üçüncü yeri tutub. Fevralın 10-11-də keçirilən Azərbaycan birinciliyində isə "Spartak" İC-in yetirmələri 4 qızıl və 2 bürünc medala yiyələniblər. İyunun 2-3-də baş tutan Azərbaycan çempionatında cəmiyyətin atletlərindən Yevgeniy Kasilov iki dəfə fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Lamiyə Vəliyeva qızıl, Alyona Xeyrutdinova isə bürünc medala sahib olub. İyunun 23-24-də keçirilən 1998-1999, 2002-2003-cü illər təvəllüdlü oğlanlar və qızlar arasında Azərbaycan yay birinciliyində idman ocağının yetirmələri 4 qızıl medal əldə ediblər.

"Spartak" İC-in dəri əlcək ustaları da il ərzində müxtəlif turnirlərdə bacarıqlarını nümayiş etdiriblər. Cəmiyyətin boksçusu Eldəniz Babayev (62 kq) iyunun 2-7-də 2003-2004-cü illər təvəllüdlü oğlanlar arasında boks üzrə Azərbaycan birincilində gümüş medala sahib olub.

Əldə olunan nəticələr bir daha sübut edir ki, bu idman ocağında bacarıqlı, təcrübəli məşqçilər fəaliyyət göstərir. Onlar burada müxtəlif idman növləri ilə məşğul olan yeniyetmələrin fiziki sağlamlığı ilə yanaşı, onların mənəvi tərbiyəsinin də qayğısına qalırlar. Şübhəsiz ki, qayğı olan yerdə yüksək nəticələr də əldə olunur.

## "İdmançı psixoloji cəhətdən hazır olmalı, məşq proqramına əməl etməlidir

Yavər müəllim hesab edir ki, qazanılan bu nəticələr idmançılar üçün yüksək şərait yaradılması sayəsində mümkün olub: "Ölkəmizdə idman sahəsinə göstərilən dövlət qayğısını "Spartak" İdman Cəmiyyəti daim öz üzərində hiss edib. "Spartak" İC bu gün də Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında əvəzsiz xidmətləri olan idman təşkilatlarındandır. Biz öz işimizi günün tələbləri səviyyəsində qurmuşuq və bizə göstərilən etimadı doğrultmağa çalışırıq. Qeyd etmək istəyirəm ki, gənclərin fiziki və mənəvi inkişafı, idman yarışlarında uğurlu nəticələr əldə etmək üçün bundan sonra da səylərimizi əsirgəməyəcəyik. "Spartak" İdman Cəmiyyətinə göstərdikləri dəstək və yardıma görə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Mehbalıyevə, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin sədri Nadir Əliyevə minnətdarlığımı bildirirəm.

Bu gün böyük nəticələr uğrunda mübarizə aparmaq üçün yüksək səviyyədə şərait yaradılıb. Məhz buna görədir ki, beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil edə bilirik. Ölkəmizdə gənc nəslin fiziki inkişafına qayğı ilə yanaşılması hər birimizi sevindirir. Çünki fiziki cəhətdən sağlamlıq, həm də mənəvi keyfiyyətlərə sahib olmaq deməkdir. Fiziki və mənəvi cəhətdən sağlam olmaq isə vətənpərvər hisslərin tərbiyəsində önəmli rol oynayır. Ölkəmizdə gənc nəslin vətənpərvər ruhda böyüməsində, gənclərimizin şəxsiyyət kimi formalaşmasında "Spartak" İdman Cəmiyyətinin məşqçi-müəllimləri bütün qüvvələrini səfərbər edirlər. Təcrübəli mütəxəssislərimiz gənclərlə səylə çalışır, onlara öz bilik və bacarıqlarını aşılayırlar. Şübhəsiz ki, medal qazanmaq üçün idmançı və məşqçinin qarşılıqlı əlaqəsi, bir-birini aydın şəkildə başa düşməsi çox vacibdir. İdmançı istənilən yarışa psixoloji cəhətdən də hazır olmalı, məşq proqramlarına əməl etməlidir. Məşqin əsas komponentlərindən biri onun hazırlıq hissəsidir. Məşqçilər və idmançılar məşqin bu hissəsindən lazımınca istifadə etməlidirlər ki, yüksək nəticə qazanmaq mümkün olsun. Hazırlıq idmançını möhkəmlədir, onun cəld, güclü, dəqiq, qətiyyətli və əzmkar olmasına şərait yaradır. Bu baxımdan hazırlıq hissəsi daha ciddi yanaşma tələb edir. Təcrübəli məşqçilər çox yaxşı bilirlər ki, məşqin hazırlıq hissəsinin köməyi ilə nəinki orqanizmi, hətta beyni yarışa və məşqə hazırlamaq olar. Bu, psixoloji amillə çox bağlıdır. Yaxşı hazırlıq keçmiş idmançı özünü yarışa tam hazır hiss edir. Bir müddət məşqə fasilə verən idmançı nadir hallarda qarşıdakı dövr haqda düşünür. Buna görə də sonradan məşqlərə başladığı günlərdə onların əksəriyyətində psixoloji problemlər yaranır. Məşqçi psixoloji problemlərlə üzləşən yetirməsi ilə fərdi şəkildə məşğul olmalıdır. Qarşıya çıxan problemlərin aradan qaldırılması, məşqçinin xüsusi qayğısı idmançını ruhlandırır, onu əzmkar mübarizəyə həvəsləndirir".

## Daxili yarışların təşkili idmana marağı daha da artırır

"Spartak" İdman Cəmiyyətinin sədr müavini Yavər Hacıyev bildirdi ki, respublikamızda yaradılan şərait gənc nəslin sağlam ruhda formalaşmasına zəmanət verir. "Gənclərimizin sağlam və milli ruhda tərbiyə olunması, iradəli, mərd, vətənpərvər və cəsur böyüməsində idman ocaqlarının rolu böyükdür. Ölkəmizdə təhsil müəssisələrində, idman sektorlarında gənclərin fiziki hazırlığı mühüm və əsas amillərdən biridir. Klub və cəmiyyətlərdə daxili yarışların tez-tez keçirilməsi yeniyetmələrin və gənclərin idmana olan marağını daha da artırır. Gənclər idmanla nə qədər çox məşğul olsalar, bir o qədər də sağlam ruhda böyüyər, mənfi xüsusiyyətlərdən, pis vərdişlərdən uzaqlaşarlar. İdman və bədən tərbiyəsi sahəsində çalışan bir insan kimi hesab edirəm ki, gənclərimizin fiziki hazırlığının yüksəldilməsinə, onların sağlamlığının möhkəmləndirilməsinə zəmin yaradan kompleks tədbirlər həyata keçirilməlidir. Bütün bunlar gənclərin həyatında idmanın rolunu müəyyən edir və onun mahiyyətinin əhəmiyyətli olmasını göstərir. Bir azərbaycanlı kimi, məni sevindirən odur ki, respublikamızın əksər bölgələrində Olimpiya idman kompleksləri, idman zalları yaradılıb. İnsanların istirahət etdikləri yerlərdə də idmanla məşğul olmaq üçün hər cür şərait mövcuddur. Bakıda Milli Parkda quraşdırılan idman qurğuları buna əyani sübutdur. Gənclərin sağlam və milli ruhda tərbiyə olunmasına hamımız dəstək olmalıyıq. Çünki hər bir gəncin həyatının əsas mənası sağlam və xoşbəxt olmaq, cəmiyyətdə layiqli yer tutmaqdır. Dövlətimizin qarşısında duran vəzifələrdən ən önəmlisi sağlam gənclər yetişdirməkdir. Hər birimiz dövlətimizin prioritet saydığı bu məsələyə öz işimizlə və əməlimizlə töhfə verməliyik. Danılmaz faktdır ki, ölkəmizdə idmanın və bədən tərbiyəsinin kütləviliyi üçün ən gərəkli addımlar atılır. Respublikamızda keçirilən beynəlxalq yarışlar yeniyetmə və gənclərin idmana kütləvi şəkildə cəlb olunmasında xüsusi əhəmiyyət daşıyır. Bakıda təşkil olunan birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarından sonra idman zallarına üz tutan uşaqların sayının artması dediklərimizi bir daha sübut edir. Əminəm ki, Azərbaycan dövlətinin qayğısından bəhrələnən gənclərimiz ölkəmizin bayrağını hər zaman uca tutacaq, bu vətənin sabahının layiqli vətəndaşları olacaqlar", - deyə Yavər Hacıyev əlavə etdi.

Ölkə idmanının inkişafına öz töhvələrini verən "Spartak" İdman Cəmiyyətinin yetirmələrini qarşıda mötəbər yarışlar gözləyir. İnanırıq ki, idman sahəsində tarixi ənənələri olan bu idman ocağının atletləri gələcək yarışlarda da vətənimizin adını ucaldacaqlar.

***Əliyə İlyasova***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Orxan Abbasov:

# "Həndbolun inkişafı çətin proses olsa da, bunun öhdəsindən gəldik"

***Həndbol idman növü Azərbaycanda qədim ənənələrə malikdir. Həndbolçularımızın qazandıqları uğurlar da bunu təsdiq edir. Vaxtilə idmanın bu növü üzrə Olimpiya çempionlarımız da olub.***

***Bir vaxtlar belə tərəqqi dalğasının yaşandığı Azərbaycan həndbolunda uzun müddət idi tənəzzül müşahidə olunurdu. Nəinki yeni komandalar yaradılmırdı, mövcud klubların da vəziyyəti ürəkaçan deyildi. İstedadlı gənclərin yetişdirilməsi, mübarizə apara biləcək rəqabət qabiliyyətli komandaların formalaşdırılması, nisbətən peşəkar həndbolçuların cəlb edilməsi istiqamətində müvafiq addımların atılmaması idmanın bu növünün ölkəmizdə inkişafına böyük zərbə vurmuşdu. Nəhayət, federasiyada rəhbər dəyişikliyindən sonra həndbol idmanında da sürətli inkişaf prosesi başladı. Belə ki, Azərbaycan Həndbol Federasiyasının fəaliyyəti ilə bağlı 2016-cı ilin dekabrında Milli Olimpiya Komitəsində konfrans keçirilib. Həmin konfransda "Azəravtoyol" ASC-nin (hazırda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin) sədri Saleh Məmmədov Azərbaycan Həndbol Federasiyasının prezidenti seçilib.***

Federasiyada yeni dəyişiklikdən sonrakı qısa müddətdə həndbol idmanında böyük irəliləyiş baş verdi. Həndbolun inkişafı üçün maksimum əlverişli şəraitin yaradılması ilə yanaşı, həndbolçulara münasibət də kökündən dəyişib.

Bu gün Azərbaycan həndbolu özünün inkişaf dövrünü yaşayır. Azərbaycan dövləti,



eləcə də Federasiya tərəfindən idmanın bu növünün inkişafına göstərilən yüksək diqqət və qayğı qarşıdakı illərdə daha böyük nailiyyətlərin əldə edilməsinə güclü inam və zəmin yaradır.

Buyaxınlarda həndbol idman növünün inkişafı istiqamətində atılan addımlar və görülən işlərlə bağlı məlumat öyrənmək üçün Azərbaycan Həndbol Federasiyasının birinci vitse-prezidenti Orxan Abbasovla görüşdük. Müsahibimiz ona ünvanlanan sualları səmimi cavablandırdı.

***- Federasiya rəhbərliyində dəyişikliklərdən sonra bu idman növündə yeni dirçəliş hiss olunmağa başladı. Bu barədə nə deyə bilərsiniz?***

- Bildiyiniz kimi, 2016-cı ilin dekabr ayında Azərbaycan Həndbol Federasiyasında dəyişikliklər oldu. "Azəravtoyol" ASC-nin (hazırda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin) sədri Saleh Məmmədov Azərbaycan Həndbol Federasiyasının prezidenti seçildi. Bundan sonra qısa zaman ərzində Saleh müəllim federasiyanın yenidən qurulması, həndbolçuların, məşqçilərin toplanması istiqamətində göstərişlər verdi. Biz federasiyanın bütün əməkdaşlarını topladıq və böyük struktur dəyişiklikləri həyata keçirdik. Bildiyiniz kimi, həndbol ölkəmizdə uzun illər durğunluq dövrünü yaşayıb. Həndbolun inkişafı çətin proses olsa da bunun öhdəsindən gəldik.

***- Beynəlxalq dərəcəli hakimlərimiz tez-tez beynəlxalq yarışlara təyinat alırlar. Deməli beynəlxalq miqyasda azərbaycanlı hakimlər böyük nüfuz qazanıblar.***

- Bizim həm yerli, həm də beynəlxalq dərəcəli hakimlərimiz var. Ədalət təmsilçilərimizdən Vaqif Əliyev, Ələkbər Ağakişiyev, Emin Ağakişiyev, Ernest Ağakişiyev, İsgəndər Əsgərov beynəlxalq yarışlara dəvət alırlar. Bizim üçün sevindirici məqamdır ki, hakimlərimiz dünya arenasında böyük nüfuza sahibdirlər. Lakin biz bununla kifayətlənmək fikrində deyilik. Mütəmadi olaraq yerli hakimlər üçün kurslar təşkil edirik. Gələcəkdə gənc hakimlərimizi xarici ölkələrdə təşkil olunan seminarlarda iştirak etməsini planlaşdırırıq. Gənc hakimlərimizi Avropa ölkələrində təşkil olunan seminarlara göndərməklə onların hazırlıq səviyyəsini artırmağı düşünürük.



***- Azərbaycan həndbolçuları SSRİ dövründə uğurlu çıxışları ilə yadda qalıblar. Monreal olimpiadasındakı uğur kifayət edir ki, bu sözləri qətiyyətlə deyəsən. Bu barədə nə deyərdiniz?***

- Həndbol, xüsusən də qadın həndbolu Azərbaycanda zəngin ənənəsi olan idman növlərindəndir. Təsadüfi deyil ki, idmanın bu növü üzrə Olimpiya çempionlarımız da var. Tanınmış idmançılarımız - Rəfiqə Şabanova və Lyudmila Şubina Monreal-1976, uzun illər Bakının "Avtomobilçi" komandasının idman şərəfini qoruyan Larisa Savkina isə Moskva-1980 olimpiadasının çempionu olublar. Bu idmançılar Azərbaycan həndbolunun əfsanələri sayılırlar.

***- Həmin Olimpiya çempionları bu gün federasiyada fəaliyyətini davam etdirirlər. Federasiya onlar üçün hansı şəraiti yaradıb?***

- Rəfiqə Şabanova Azərbaycan Həndbol Federasiyasının fəxri vitse-prezidentidir. Lyudmila Şubina "Qarabağ" həndbol klubunun prezidentidir. Bir sözlə, onlar bu gün federasiyamızın diqqət mərkəzindədirlər. Biz onların təcrübəsindən yararlanır, tövsiyələrinə əməl edirik.

***- Həndbol üzrə millimiz IV İslam Həmrəyliyi Oyunlarının qalibidir. Bu tarixi nailiyyəti necə qiymətləndirirsiniz?***

- Müstəqil Azərbaycan həndbolunun ən böyük uğuru sözsüz ki, IV İslam Həmrəyliyi Oyunlarında qazanılan qızıl medaldır. Azərbaycan həndbolçuları bu mötəbər idman tədbirində olduqca güclü komandalarla qarşılaşmasına baxmayaraq, əsl əzmkarlıq və fədakarlıq nümunəsi göstərdilər. İlk mərhələdə Kamerun, Özbəkistan və Türkiyə həndbolçularını məğlub edən millimiz finalda yenidən qardaş ölkə təmsilçiləri ilə üz-üzə gəldi. Gərgin idman mübarizəsinin nəticəsi olaraq həndbolçularımız 28:26 hesabı ilə qələbə qazandılar. Bununla da qadın həndbolçulardan ibarət Azərbaycan millisi IV İslam Həmrəyliyi Oyunlarında ilk komanda olub. Bu tarixi qələbə müstəqil Azərbaycanın həndbol idman növündə qazandığı ən böyük uğurdur. Təbii ki, bütün bu nailiyyətlərimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkə idmanına göstərdiyi diqqət və qayğısı sayəsində əldə olunub.

***- Ölkə çempionatı gərgin mübarizə şəraitində keçir. Yeni istedadları üzə çıxara bilirsinizmi?***

- Uzun illərdir ki, həndbol üzrə Azərbaycan çempionatı keçirilmirdi. Yeni dəyişiklikdən sonra ölkə çempionatını yenidən təşkil etməyi qərara aldıq. Fəaliyyətə 24-cü Azərbaycan çempionatı ilə başladıq. Yarışda 6 klubumuz iştirak edirdi. Çempionatımız uğurla keçirdik. Sentyabr ayından yeni - 25-ci ölkə çempionatına start verdik. Çempionat 20 turdan ibarətdir. Ötənilki çempionatdan fərqli olaraq bu yarışda 6 deyil, 10 klub (4 kişi, 6 qadın komandası) mübarizə aparır. Yarışlar çox gərgin mübarizə şəraitində keçir. Sevindirici haldır ki, yarış zamanı arenamız azarkeşlərlə dolu olur. Bir sözlə arenada əsl idman ab-havası, azarkeşlik canlanması hiss olunur. Sözsüz ki, biz bu klublarla kifayətlənmirik. Bölgələrdə yeni komandaların yaradılması barədə müəyyən işlər görürük. Biz həndbol idman növünü inkişaf etdirmək üçün yeniyetmələrdən başlamalıyıq, baza yaratmalıyıq ki, həndbol Azərbaycanda inkişaf etsin. Bunun üçün Gəncə, Göygöl, İsmayıllı, Mingəçevirdə və digər regionlarda yeniyetmələri toplamışıq və komandaların inkişafı üçün hər cür şərait yaratmışıq. Yeniyetmələr arasında rayon çempionatları, zona yarışları təşkil edirik. Həmin yeniyetmələr gələcəyin həndbolçusu kimi yetişirlər.

***- Federasiyanın legioner siyasəti hansı istiqamətdə qurulub?***

- Bu gün yerli sayt və qəzetlər əsassız olaraq yazırlar ki, həndbol klublarında çoxlu legioner idmançı var. Lakin heç bir jurnalist gəlib araşdırmır ki, onlar yerli və ya əcnəbi idmançılardır. Düzdür, klublarda legioner idmançılar var. Amma klubların əksəriyyətini yerli idmançılar təşkil edirlər. Qeyd etdiyim kimi həndbol Azərbaycanda uzun illər durğunluq dövrü keçirib. Təbii ki. həndbolun inkişafını əvvəlki səviyyəyə qaytarmaq üçün legioner idmançılara ehtiyacımız var. Bu həm də rəqabət mühitini formalaşdırmaq üçün çox yaxşı bir addımdır. Biz öz yerli idmançılarımıza üstünlük veririk. Klublarda əsasən 2-3 legioner idmançı çıxış edir. Federasiyanın qısa zaman ərzində gördüyü uğurlu işlərdən deyil, əsassız olaraq legionerlərdən yazırlar.

***- Kiçik yaş qrupları üzrə birinciliklərin və çempionatların keçirilməsi nəzərdə tutulub?***

- 2019-cu ildə ölkəmiz Avropa Yeniyetmələrinin Olimpiya Festivalına ev sahibliyi edəcək. Həndbol üzrə yeniyetmələrdən ibarət yığma komandamız da həmin yarışda iştirak edəcək. Biz artıq yanvar ayından bu yarışların hazırlığına başlamışıq. Deməli olar ki, yığma komandanı formalaşdırmışıq. Həndbolçularımız mütəmadi olaraq xarici ölkələrdə təlim-məşq toplanışında iştirak edirlər. Bu məqsədlə yarışla əlaqədar hələlik kiçik yaş qrupları üzrə birinciliklərin keçirilməsi. Bundan başqa may ayında ümummilli lider Heydər Əliyevin doğum gününə həsr olunmuş böyüklər arasında beynəlxalq turnir təşkil edəcəyik.

***- Komanda idman növlərinin inkişafı üçün hansı planlar həyata keçirilir?***

- Milli komandamızın hazırlıq səviyyəsinin yüksəldilməsi üçün yığmamızı qarşıdakı aylarda xarici ölkələrdə təlim-məşq toplanışına göndərəcəyik. Onu da qeyd edim ki, iyul ayında İsveçdə yeniyetmə həndbolçular arasında dünya çempionatı keçiriləcək. Artıq bu yarışın da hazırlığına başlamışıq. Bundan başqa komandalarımızın mümkün beynəlxaq turnirlərdə iştirakını təşkil edəcəyik.

***- Çimərlik həndbolu barədə nə deyərdiniz?***

- Ölkəmizdə çimərlik həndbolu üzrə cəmi bir dəfə respublika çempionatı keçirilmişdi. Uzun illər ərzində bu növ üzrə yarışlar təşkil olunmurdu. Struktur dəyişikliyindən sonra ötən ilin avqustunda həm kişi, həm də qadınlar arasında çimərlik həndbolu üzrə ikinci Azərbaycan çempionatını keçirdik. Bakı Su İdmanı Sarayında keçirilən yarışların yüksək səviyyədə təşkil olunması bu idman növünə diqqətin artırılmasının göstəricisidir.

*Azər Əlizadə*

## Redaksiyanın poçtundan



## Dünya və Avropa çempionu hakimlik etdi

Martın 23-dən 29-dək Ağır Atletika Akademiyasında növbəti ölkə çempionatı keçirilib. Ölkəmizin ən güclü atletlərinin mübarizəsini baş hakim, Sabunçu RPİ-nin əməkdaşı, polis mayoru Asif Məlikov idarə edib.

Üçqat dünya və Avropa çempionu, əməkdar idman ustası, beynəlxalq dərəcəli hakim Asif Məlikov bu qəbildən olan yarışların idarə olunmasında böyük təcrübə əldə edib. Dəfələrlə yeniyetmə və gənclər arasında beynəlxalq miqyaslı yarışlarda adı ən ədalətli hakimlər sırasında çəkilib.

Təmsilçimiz yarış təəssüratlarını bölüşərkən bildirdi ki, son illər Olimpiya idman növlərindən olan ağırlıqqaldırma ölkəmizdə intibah dövrünü yaşayır. Elə son çempionatda ölkəmizin müxtəlif bölgələrini təmsil edən 440-dan çox idmançı gücünü sınayıb. Bölgələrdən olan ağırlıqqaldıranların ümidverici çıxışları daha yüksək nəticələr əldə edəcəyimizə zəmin yaradır.

*Zeyni Hüseynov,*
*DİN Mətbuat Xidmətinin əməkdaşı*

## Şəhidlərimizin xatirəsi turnirlə anılıb

Qazax rayonunun Qazaxbəyli kəndində sərbəst güləş üzrə yeniyetmələr arasında rayon açıq turniri təşkil edilib.

Turnir Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmanlıq göstərən, Aprel döyüşlərində xüsusi kəşfiyat dəstəsinin tabor komandiri kapitan Mühit Orucov və digər şəhidlərimizin xatirəsinə həsr olunub. Yarışda Qazax, Ağstafa, Sumqayıt və digər rayonların komandalarını təmsil edən 200-ə yaxın idmançı 2 gün müddətində qələbə uğrunda mübarizə aparıb.

Açılış mərasimində himnimizin sədaları altında üçrəngli bayrağımız yüksəyə qaldırıldıqdan sonra tədbir iştirakçılarına söz verilib. Açılış mərasimində Qazax rayon icra başçısının məsul işçisi Sərdar Orucov, təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, Uşaq Gənclər İdman və Şahmat Məktəbinin direktoru, fəxri bədən tərbiyəsi idman işçisi Rəşad Bəkirov, yarışların baş hakimi Əməkdar məşqçi Hidayət Mehdiyev və digərləri çıxış ediblər. Onlar öz çıxışlarında şəhid komandir Mühit Orucovun çətin və şərəfli qısa ömür yolundan danışaraq yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda böyüməsində bariz nümunə olduğunu bildiriblər.

Turnirin nəticələrinə görə, Abdulqadir Mirzəyev (23 kq) Rəşid Nəzərov (26 kq) Bayram Bayramov (35 kq) Arzuman Dərgahquliyev (38 kq) və İsmayl Rəhimli (42 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Yarışın



qalibləri və mükafatçıları Qazax Rayon Təhsil Şöbəsi tərəfindən medal, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Aprel şəhidi Mühit Orucovun qardaşı Elbəy Orucov, əmisi Elşad Orucov Qazax Rayon İcra Hakimiyyəti və Təhsil Şöbəsinin rəhbərliyinə, eləcə də, idmançılara dərin minnətdarlıqlarını bildiriblər.

*İsa Namazlı,*
*Qazax*

## Xəbərlər

### XXVI Azərbaycan çempionatı başa çatıb

Şağan Olimpiya İdman Kompleksində uşu idman növü üzrə XXVI Azərbaycan çempionatı keçirilib. Yarışın təşkil olunmasında məqsəd idmançıların ustalıq dərəcəsinin artırılması, 2018-ci il Avropa çempionatında iştirak edəcək heyətin müəyyənləşdirilməsidir.

Turnirdə kişi idmançılar sanda və çinda növləri üzrə müxtəlif yaş kateqoriyasında və çəki dərəcələrində medallar uğrunda mübarizə aparıblar. Ümumi komanda hesabında yeniyetmələr arasında "Artika-Abşeron", gənclərin mübarizəsində "Omar", böyüklər yarışlarında isə "Savalan" birinci yerə sahib çıxıb.

Çempionatın qalibləri diplom və medallarla təltif olunublar.

### Alpaqut Federasiyasının qurultayı keçirilib

Aprelin 6-da Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Alpaqut Federasiyasının (AAF) qurultayı keçirilib. Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Alpaqut Turan döyüş sənətinin müəllifi kutsan Vasif Namazov çıxış edərək 2014-cü ildə yaradılmış federasiyanın fəaliyyətindən danışıb. O bildirib ki, ötən illər ərzində alpaqut idman növü üzrə bir sıra ölkədaxili və beynəlxalq tədbirlər keçirilib.

Qurultayda AAF-ın İdarə Heyətinin yeni tərkibi formalaşdırılıb və federasiyanın yeni rəhbərliyi müəyyənləşib. İndiyədək AAF-ın birinci vitse-prezidenti vəzifəsində çalışan Qüdrət Nuriyev Federasiyanın prezidenti seçilib.

# FUTBOL

## “Qarabağ” Türkiyədə mükafata layiq görüldü






Aprelin 4-də Türkiyədə ənənəvi “Milliyyət idman mükafatları” sahibini tapıb. “Milliyyət” qəzetinin binasında keçirilən qala-gecədə onlayn səsvermədən sonra ən yaxşıların adları açıqlanıb.

8 mükafatdan biri uğrunda Azərbaycan çempionu “Qarabağ” klubu da yarışıb. Ağdam təmsilçisi 2017-ci ildə Çempionlar Liqasının iştirakçısı kimi ilin ən yaxşı komandası nominasiyasında mükafata iddia edib. Birinciliyi isə “Fənərbağça” klubunun basketbol komandası qazanıb. Amma ağdamlılar Türkiyədən əliboş dönməyiblər. Belə ki, Azərbaycan çempionuna jürinin xüsusi mükafatı təqdim olunub. “Qarabağ” prezidenti Tahir Gözələ hədiyyəni futbol üzrə Türkiyə millisinin baş məşqçisi, məşhur rumıniyalı mütəxəssis Mirça Luçesku təqdim edib.

Tahir Gözəl isə qala-gecəyə toplaşan tamaşaçıları Nəsiminin “Sığmazam” qəzəlindən iki beytlə salamlayıb.

Qeyd edək ki, tədbirdə “Qarabağ”ı vitse-prezident Tahir Gözəl, icraçı-direktor Əmrah Çəlikəl, menecer Asif Əsgərov, baş məşqçi Qurban Qurbanov və mətbuat xidmətinin rəhbəri Nurlan İbrahimov təmsil ediblər.

## “Amsterdam Arena”nın adı dəyişir

“Ayaks” əfsanəvi futbolçusu Yohan Kroyffun xatirəsini əbədiləşdirəcək. Klubun rəsmi saytının yaydığı xəbərə görə, Amsterdam təmsilçisi keçmiş yetirməsinin adını ev oyunlarını keçirdiyi stadiona verəcək. Gələn mövsümdən “Amsterdam Arena” “Yohan Kroyff Arena” adlanacaq. Bununla bağlı yeni loqo isə aprelin 25-də, yəni, Kroyffun doğum günündə təqdim olunacaq.

2016-cı ilin martında dünyasını dəyişən Kroyff 1964-1973 və 1981-1983-cü illərdə “Ayaks”ın formasını geyib. 1986-1988-ci illərdə isə o, komandanın baş məşqçisi olub.

Kroyff 20-ci əsrin ən yaxşı futbolçularından biri hesab olunur. O, 3 dəfə “Qızıl top”a sahib çıxıb.

## “Zadəganlar” iki seçim qarşısında qalıb

“Çelsi” mövsümün sonunda komandadan gedişi gündəmdə olan Antonio Konteninin əvəzinə yeni baş məşqçi axtarışlarını davam etdirir. “Sky Sports”un yaydığı məlumata görə, London klubunun rəsmiləri artıq onlardan 2-si - Massimiliano Alleqri və Luis Enrike ilə ilkin danışıq aparıblar. Amma hələlik bu mütəxəssislər arasında seçim edilməyib. “Çelsi” rəhbərliyi əvvəlcə yeni baş məşqçi ilə daha sıx işləyə biləcək idman direktoru tapmaq istəyir.

Qeyd edək ki, komandanın cari mövsümdəki uğursuz çıxışından narazı olan “Çelsi”nin sahibi Roman Abramoviçin yayda Konteni istefaya göndərəcəyi gözlənilir.




### DÇ-2018-də hakimlər nə qədər qazanacaq?

Rusiyada keçiriləcək dünya çempionatına təyinat alacaq hakimlərin qazancı məlum olub.

“Marca”ya istinadən yaydığı məlumata görə, adı siyahıya düşən hər bir baş hakim 57 min avro, eləcə də mundialda idarə edəcəyi hər oyuna görə 2500 avro alacaq.

Yan xətt hakimlərinin qazancı isə 20 min avro, hər oyun üçün isə 1600 avro olacaq.

Qeyd edək ki, mundialda 36 hakimin iş başında olacağı gözlənilir.

### “Sambaçı”ların seçimi mayın 14-də açıqlanacaq

Futbol üzrə Braziliya millisinin Rusiyada təşkil olunacaq dünya çempionatı üçün yekun heyəti mayın 14-də açıqlanacaq.

FIFA-nın qaydalarına görə, mundialın iştirakçıları iyunun 4-dək sifariş ərizəsini quruma yollamalıdırlar. Ancaq Braziliya millisi yekun heyəti digər komandalardan əvvəl təqdim edəcək.

Bir müddət əvvəl Braziliya millisinin baş məşqçisi Tite Rusiyaya gedəcək 15 futbolçunu elan etmişdi. Belə ki, heyətə Alisson, Dani Alves, Markinos, Tiaqo Silva, Miranda, Marselo, Kazemiro, Renato Auqusto, Paulino, Koutino, Fernandino, Villian, Neymar, Qabriel Jezus və Firmino daxil edilmişdi.

### Moskvada DÇ-2018 ilə əlaqədar mərkəz işə başlayıb

Moskva şəhərində 2018-ci ildə keçiriləcək futbol üzrə dünya çempionatının azarkeşlərinin və turistlərin yerləşdirilməsi üzrə mərkəzi işə başlayıb. Bu mərkəz vasitəsilə şəhərin otellərində boş yerlər barədə məlumat almaq, habelə futbol üzrə dünya çempionatının keçirildiyi dövrdə qiymətinə və yerləşmə ərazisinə görə münasib olan yaşayış yeri seçmək mümkün olacaq. Yeni mərkəzin açılması barədə məlumat Moskva merinin saytında yerləşdirilib.

Mərkəzin operatorları müxtəlif ölkələrdən və Rusiyanın başqa şəhərlərindən olan futbol azarkeşlərinə münasib yaşayış yeri seçmək üçün telefon vasitəsilə kömək edirlər.



Azarkeşlərin yerləşdirilməsi üzrə mərkəzin xüsusi informasiya bazasında Moskva otellərinin altı mindən çox nömrəsi barədə məlumat toplanıb. Mərkəzə zəng vuran sifarişçidən öz telefon nömrəsini və ya elektron poçt ünvanını bildirməsini xahiş edirlər. Sonra həmin şəxsin tələblərinə uyğun olan otelin nümayəndələri onunla əlaqə saxlayır. Məlumat bazası sonradan daha da genişlənəcək, buraya Moskva vilayətindəki otellərə aid məlumatlar da əlavə olunacaq.

Xatırladaq ki, futbol üzrə dünya çempionatının matçları bu il iyunun 14-dən iyulun 15-dək Rusiyanın 11 şəhərində: Moskva, Sankt-Peterburq, Kazan, Soçi, Nijni Novqorod, Samara, Volqoqrad, Rostov-Don, Kalininqrad, Yekaterinburq və Saransk şəhərlərində keçiriləcək.

Moskvada 12 oyun nəzərdə tutulur. Əsas hadisələr “Lujniki” stadionunda cərəyan edəcək. Burada qrup mərhələsinin açılış mərasimi və dörd görüş, həmçinin səkkizdəbir final oyunlarından biri, yarımfinal və final matçları keçiriləcək. Daha beş oyunu “Spartak” stadionu qəbul edəcək: qrup mərhələsinin dörd görüşü və səkkizdəbir final oyunlarından biri burada keçiriləcək.

## “Samuraylar”ın yeni baş məşqçisi müəyyənləşdi

Yaponiya millisinin yeni baş məşqçisi müəyyənləşib. Bu posta Akira Nisino gətirilib. 63 yaşlı mütəxəssis ötən gün istefaya göndərilən Vahid Halilhodziçi əvəzləyib. Bundan əvvəl Nisinonun son iş yeri “Naqoya Qrampus” klubu olub.

Qeyd edək ki, Rusiyada keçiriləcək dünya çempionatında Yaponiya H qrupunda Polşa, Seneqal və Kolumbiya ilə mübarizə aparacaq.

## FİFA-dan yeni qaydalar

FİFA futbol qaydalarında yeni dəyişiklər etməyi planlaşdırır. Ali futbol qurumu bu qaydaları əvvəlcə aşağı yaş qrupu üzrə komandalar arasında keçirilən oyunlarda tətbiq edəcək.

Birinci dəyişiklik əvəzetmələrlə bağlıdır. Hazırkı qaydalara əsasən, əvəzlənən futbolçu dördüncü hakimin yanından meydanı tərk etməlidir. Yeni qərara görə, oyunçu referinin işarəsindən sonra ən yaxın yerdən meydançadan çıxacaq.

İkinci dəyişiklik məşqçilərin də sarı vərəqə ilə cəzalandırılmasını ehtiva edir. Mövcud durumda çalışdırıcılar intizamsız davranışa görə birbaşa meydandan qovulurlar. Bundan sonra isə əvvəlcə “sarı” ilə cəzalandırılacaq, sonra tribunaya göndəriləcəklər.

Son dəyişiklik isə qapıdan zərbə ilə bağlıdır. İndiki qaydalara əsasən, qapıçı topu oyuna daxil edərkən mütləq cərimə meydançasının kənarına ötürməlidir. Dəyişiklik zamanı qapıçılar cərimə meydançası daxilində olan komanda yoldaşına da ötürmə verə biləcək. Ancaq ötürmə anında rəqib futbolçu cərimə meydançasına daxil ola bilməyəcək.

## Cavab oyununu formallığa çevirən matçlar

### *“Qoca Sinyora” 19 ildən sonra böyük hesabla məğlub olub*

Ötən həftə UEFA Çempionlar Liqasında (ÇL) 1/4 final mərhələsinin ilk oyunları keçirilib. İlk oyun günü qonaqların üstünlüyü ilə keçsə də, növbəti gün meydan sahibləri böyükhesablı qələbəyə seviniblər. Cavab oyunu öncəsi qələbə qazanan “Real”, “Bavariya”, “Liverpul” və “Barselona” klublarının növbəti mərhələ şansları yüksək qiymətləndirilir.

**UEFA Çempionlar Liqası**

**1/4 final mərhələsi, ilk oyunlar**

**“Yuventus” - “Real” - 0:3**

**Qollar:** Ronaldo, 3, 64; Marselo, 72.

**Qırmızı vərəqə:** Paulo Dibala, 66.

**Baş hakim:** Cüneyt Çakır (Türkiyə).

***3 aprel. Turin. “Yuventus” stadionu.***



Bu mərhələnin ən diqqətçəkən görüşü Turində keçirilib. Ötənilki finalçılar “Yuventus” və “Real” klubları münasibətlərinə aydınlıq gətiriblər. “Qoca Sinyora”nın heyətində cəzalı Medhi Benatia və Miralem Pyaniçin iştirak etmədiyi görüş qonaqların üstünlüyü şəraitində keçib. Kriştianu Ronaldonun dublu və Marselonun 1 qolu “kral klubu”na səfərdə böyükhesablı qələbə qazandırıb. 3:0 hesablı nəticə ilə “Real” cütün taleyini, demək olar ki, ilk matçda həll edib. Beləliklə, “Yuventus” öz antirekordunu təkrarlayıb. Turin təmsilçisi 1999-cu ildən bəri ÇL-də ilk dəfə doğma azarkeşləri önündə 3 dəfə mərkəzə dəvət edilib. 19 il əvvəl “Mançester Yunayted”lə İtaliyada keçirilən yarımfinal görüşündə ingilislər 3:2 hesablı qələbə qazanmışdılar.

Yeri gəlmişkən, Kriştianu Ronaldo daha bir rekorda imza atıb. Portuqaliyalı futbolçu ÇL-də ardıcıl 10 matçda qol vuran ilk futbolçu kimi tarixə düşüb. Buna qədər rekord ardıcıl 9 oyunda qol vuran “Mançester Yunayted”in keçmiş hücumçusu Rud van Nistelroya (2002/2003) məxsus idi.

**“Sevilya” - “Bavariya” - 1:2**

**Qollar:** Sarabria, 32 - Xesus Navas, 37 (öz qapısına); Tiaqo, 68.

**Baş hakim:** Daniele Orsata (İtaliya)

***3 aprel. Sevilya. “Ramon Sançes Pisxuan” stadionu.***

1/8 finalda “Beşiktaş”ı mübarizədən kənarlaşdıran “Bavariya” İspaniyada “Sevilya” klubu ilə qarşılaşıb. İndiyədək avrokuboklarda üz-üzə gəlməyən komandaların ilk qarşılaşmasında Almaniya təmsilçisi favorit hesab olunurdu. Son 5 İspaniya səfərindən əliboş dönən “pivəçilər” bu dəfə tilsimi qırıblar. Matçda hesabı meydan sahibləri açıblar. Oyunun 32-ci dəqiqəsində Sarabria meydana toplaşan yerli azarkeşləri sevindirib. Qoldan 5 dəqiqə sonra qonaqlar hesabı bərabərləşdiriblər. Xesus Navas topu öz qapısına vurub. Fasilədən sonra matç almanların hücumları ilə keçib. Bunun nəticəsi olaraq, “Bavariya” qələbə qolunu vurmağa müvəffəq olub. Matçın 68-ci dəqiqəsində Tiaqo komandasının qələbə qolunu vurub - 1:2.

**“Liverpul” (İngiltərə) - “Mançester Siti” (İngiltərə) - 3:0**

**Qollar:** Salah, 12, Oksleyd-Çemberleyn, 21, Mane, 31.

**Baş hakim:** Feliks Brix (Almaniya).

***4 aprel. Liverpul. “Enfild Roud” stadionu.***

İngiltərə təmsilçiləri “Liverpul” və “Mançester Siti” klubları “Enfild Roud”da qarşılaşıblar. Oyuna yaxşı başlayan meydan sahibləri hesabı açmağa müvəffəq olublar. Matçın 12-ci dəqiqəsində Salah hesabı açıb. Hücumlarını davam etdirən “limanlılar” hesabı daha da artırıblar. Oyunun 31-ci dəqiqəsinə kimi daha 2 qol vuran meydan sahibləri matçın taleyini həll ediblər. Oksleyd-Çemberleyn və Mane komandaya qələbə qazandıran qollara imza atıblar. 3:0 hesablı qələbə qazanan “Liverpul” cavab matçını formallığa çevirib.



**“Barselona” (İspaniya) - “Roma” (İtaliya) - 4:1**

**Qollar:** De Rossi, 38 (öz qapısına), Manolas, 55 (öz qapısına), Pike, 59, Luis Suarez, 87 - Dzeko, 80.

**Baş hakim:** Danni Makiele (Hollandiya).

***4 aprel. Barselona. “Nou Kamp” stadionu.***

“Barselona” doğma azarkeşlər önündə “Roma” klubunu qəbul edib. İtaliya klublarına qarşı keçirdiyi son 12 ev oyununda uduzmayan kataloniyalılar bu dəfə də ənənəyə sadiq qalıblar. İlk hissədə bir qol vurulub. Oyunun 38-ci dəqiqəsində De Rossi topu öz qapısına vurub. Fasilədən sonra qonaqlar yenə “ənənə”yə sadiq qalıblar. Bu dəfə Manolas topu öz qapısına yollayıb. Meydan sahibləri də qol vurmağa nail olublar. Pike və Luis Suarez fərqləniblər. Qonaqlar isə qollardan yalnız birinin əvəzini çıxa biliblər. Dzeko italyanları ümidləndirib.

***Rahib Sahiboğlu***



## 1000-ci oyunun ikinci sahibi

Portuqaliya çempionatının 28-ci turunda "Belenenseş" ilə oyun "Portu" futbol klubunun qapıçısı İker Kasilyas üçün əlamətdar olub.

Start heyətində yer alan futbolçu peşəkar karyerasında 1000-ci oyununu keçirib. Qapıçı bu göstəriciyə imza atan ikinci futbolçu kimi tarixə düşüb. İspaniyalı futbolçu Raul da 1000 oyunda meydana çıxıb.

İker Kasilyas karyerasında "Real"ın heyətində 725, "Portu"da 108, İspaniya millisində isə 167 oyun keçirib.

Qeyd edək ki, qapıçı 385 oyunda qapısından top buraxmayıb.



# DÜNYA İDMANI

## Ən çox kubok qazanan futbolçu

Fransanın PSJ klubunun müdafiəçisi Dani Alveş tarixdə ən çox titul qazanan futbolçu olub. Martın 31-də Alveş Paris komandasının heyətində Fransa Liqa kubokunun qalibi olub. Turnirin finalında paytaxt komandası "Monako"nu 4:1 hesabı ilə darmadağın edib. 34 yaşlı futbolçu bu qələbə sayəsində karyerasında 36-cı kuboka sahib olub. O, bu göstərici üzrə futbol tarixində yeni rekord müəyyənləşdirib. Braziliya millisinin üzvü sabiq futbolçular uelsli Rayan Giqqsi və şotlandiyalı Kenni Dalqlişi geridə qoyub. Dani Alveş titullarının 23-nü "Barselona"nın heyətində qazanıb. O, digər kubokları isə "Bahiya" (1), "PSJ" (2), "Yuventus" (2), "Sevilya" (5) klublarında forma geyindiyi dövrdə aktivinə yazdırıb. Braziliya milli komandasının heyətində isə D.Alveş bir dəfə Amerika kubokunu, iki dəfə isə Konfederasiyalar kubokunu başı üzərinə qaldırıb.



## Əbu-Dabidə trasın konfiqurasiyası dəyişdirilməyəcək

Formula-1 pilotu Lyuis Hamilton ötən il Əbu-Dabidə Yas-Marina trasının konfiqurasiyasının xüsusiyyətlərinə görə həmlə məsafəsində Valteri Bottasa yaxınlaşa bilmədiyini narazılıqla bildirib. Buna görə də yürüşçü təşkilatçıları dəyişikliklər etməyə çağırıb. Əbu-Dabi avtodromunun icraçı direktoru Al Tarik Al Əməri bildirib ki, hələlik trasda heç bir dəyişiklik edilməyəcək. "Trasın konfiqurasiyası dəyişdirilməyəcək, amma biz "Qran Pri F1" yarışını daha yaxşı təşkil etməyin yollarını daim axtarırıq. İnanın ki, trası yaxşılaşdırmaq və yürüşü daha maraqlı etmək imkanı olsaydı, artıq bunun üzərində işləyərdik. Məqsədə çatmağa imkan verən münasib həll yolu tapan kimi bunu açıqlayacağıq", - deyə Al Tarik Al Əməri bildirib.

## Amerikalı basketbolçu dünyasını dəyişdi

Bir neçə gün əvvəl oyun zamanı ürəyi dayanan ABŞ-ın "Qrand Rapids" klubunun basketbolçusu Zek Apşou xəstəxanada dünyasını dəyişib. Bu barədə Milli Basketbol Assosiyasiyasının (NBA) saytı məlumat verib. Məlumata əsasən, həkimlərin səylərinə baxmayaraq, 26 yaşlı basketbolçunu xilas etmək mümkün olmayıb.

Qeyd edək ki, "Qrand Rapids" - "Detroyt Pistons" matçı (G liqası) zamanı huşunu itirən Zek Apşou xəstəxanaya yerləşdirilmişdi.

## Aprel zarafatı sensasiya yaradıb



Dünyanın məşhur hücumçularından biri, hazırda karyerasını "Konyaspor"da davam etdirən Samuel Eto`Onun "1 Aprel" zarafatı ölkəsində böyük səs-küyə səbəb olub.

Türkiyə mətbuatının yazdığına görə, kamerunlu forvard 2019-cu ildə ölkəsində keçiriləcək prezident seçkilərində namizəd olacağını bildirib. Sonradan bunun zarafat olduğu üzə çıxıb.

Bununla belə, Afrika mediası Liberiyada sabiq futbolçu Corc Veanın prezident seçildiyini əsas gətirərək Samuelin də şansının böyük olduğunu yazıb.

## Ölümü ilə 7 insanı xilas edən boksçu

Boksçu Skott Uestqart bədən orqanlarını bağışlamaqla 7 nəfər insanın həyatını xilas edib.

31 yaşlı ingiltərəli boksçu bu ilin fevralında Dek Spellmanla təkbətək döyüşdən sonra həyatını dəyişib. Donor olmağa ölümündən əvvəl qərar verib. Bu barədə mərhum boksçunun anası məlumat verib. Onun sözlərinə görə, oğlu sağlığında da hər zaman zəifləri müdafiə edib, onların qayğısına qalıb: "İstəyirəm ki, insanlar oğlumu bir boksçu kimi yox, həm də yaxşı insan kimi xatırlasınlar".

Uestqart ailəsinə kömək üçün İngiltərədə hesab açılıb və bura 9 min funt sterlinq köçürülüb. Mərhum idmançı boksla 2009-cu ildən məşğul olub, 2013-cü ildən peşəkar rinqdə döyüşüb. Ölümünə qədər 7 döyüş keçirib, 2 dəfə məğlub olub, bir heç-heçə edib.

### Sadəcə bəhanələr var...

Çox maraqlıdır, 75 yaşlı britaniyalı qadın ştanq qaldırır və neçə ildir ki, marafon yarışlarında iştirak edir.

Edvina adlı yaşlı xanım artrit xəstəliyindən əziyyət çəkməsinə baxmayaraq çətin idman yarışlarında inamla çıxış edir. Onun 50 yaşına qədər idmanla heç bir əlaqəsi olmayıb. Artıq çəkidən həmişə əziyyət çəkib, pilləkənləri güclə qalxıb. İdmanla məşğul olmaq onun heç ağlına da gəlməyib.

Bu xanım yubileyini qeyd edəndən sonra həkimlərin məsləhəti ilə yüngül qaçışla məşğul olub. Zamanla qaçışa böyük maraq göstərib və bu onun gündəlik həyat tərzinə çevrilib. Çünki qaçış ona işdə yükləndiyi stressdən qurtulmaqda kömək edib. O, uşaqları müdafiə komitəsində çalışıb.

Qaçış ona 1994-cü ildə xərçəngdən dünyasını dəyişən ərinin ölüm acısını yaşamağa da yardım edib. Edvina xanım 1996-cı ildə burada yaşayan üç övladına yaxın olmaq üçün London şəhərinə köçüb. Elə həmin il də London marafonunda iştirak edib.

2009-cu ildə Böyük Britaniyanın Lancarote adasında "İronman" adı altında keçirilən triatlon yarışlarında iştirak edib. Bu vaxt onun 66 yaşı var idi. Edvina xanım yarışın ən yaşlı iştirakçısı adını alır. Məlumat üçün bildirək ki, "İronman" dünyada ən çətin bir günlük triatlon yarışı hesab olunur. Belə ki, bu yarışda iştirakçılar bir gün ərzində dayanmadan 3,86 km üzməli, şosse ilə 180,25 km məsafə qət etməli, eləcə də 42, 195 km-lik marafon yarışlarını başa vurmalıdır.

# İdman üçün yaşın fərqi yoxdur



### Ən yaşlı idmançı

O vaxtdan indiyə Edvina xanım 6 dəfə "İronman" yarışında, 5 dəfə duatlon (yalnız qaçış və velosiped) yarışlarında, 7 dəfə isə London marafonunda qüvvəsini sınayıb.

Hazırda bu cəsur xanımın 75 yaşı var və artritdən əziyyət çəkir. Lakin yaşına və xəstəliyinə baxmayaraq, yarışlarda cəsarətlə iştirak edərək Böyük Britaniyanın ən yaşlı idmançısı titulunu qoruyur. Diz qapaqlarında problem olduğu üçün həkimlər ona qaçmağı qadağan etsələr də, o, idmanı buraxmaq fikrində deyil. Məhz idman sayəsində həyatda olduğunu bildirən Edvina xanım bundan sonra qaçış, üzgüçülüklə məşğul olacağını və velosiped sürəcəyini deyir.

Britaniyalı qadın Edvina Brokesbi özünü çox gümrah və enerjili hiss edir. Ürəyi həmyaşıdlarından gözəl döyünür. Həftədə 2-3 dəfə idman zalında məşq edir, ştanq qaldırır, avar çəkir. O, hər səhərini qaynar su və limon şirəsi ilə açır. Sonra səhər yeməyinə yumurta və araxis yağı ilə sendviçlə davam edir.

***P.S.*** *Sağlamlığımızın qayğısına qalmaq, idmanla məşğul olmaq üçün bəhanə axtarmayaq. Sadəcə, istəmək və tənbəl olmamaq yetər...*

***Səadət Hakıyeva***

## Tennisçi dopinqdən istifadə etdiyi üçün cəzalanıb



15 yaşlı Türkiyə tennisçisi Zeyneb Sönmez bir illik müddətə diskvalifikasiya edilib. Buna səbəb idmançının modafinil adlı qadağan olunmuş preparatdan istifadə etməsi olub.

Zeyneb Sönməz bu dərmanı ona psixiatrın yazdığını deyib. İdmançı izah edib ki, beynəlxalq yarışlar və məktəb proqramı ilə artıq yükləndiyi üçün həkimə müraciət edib və həkim ona modafinil preparatını yazıb. Tennisçi bu dərmanın qadağan edildiyindən xəbərsiz olduğunu etiraf edib.



## *Leonel Messi 3 oğul atasıdır*

"Barselona"nın ulduz futbolçusu Lionel Messi ilk dəfə yeni doğulmuş övladının fotosunu paylaşıb.

Şəkillərdə 30 yaşlı futbolçu, 29 yaşlı xanımı Antonella Rokusso, 2 yaşlı Mateo, 5 yaşlı Tyaqo, 1 aylıq Çiro adlı oğulları və futbolçunun valideynləri - Seliya Mariya, Xorxe Messi yer alır.

Xatırladaq ki, Messi ilə Rokusso ötən il iyunun sonunda ailə qurublar. Cütlüyün 3-cü oğlu bu ilin martında dünyaya gəlib.

## İdmançı öz evində qətlə yetirilib

Braziliyalı MMA döyüşçüsü Adriano Mamute qəddarlıqla öldürülüb.

Qətl hadisəsi mərhumun evində baş verib. Tibbi ekspertizanın rəyinə görə, 29 yaşlı idmançı sinəsindən bıçaqlanıb və sifətindən güllələnib. Ailə üzvlərinin sözlərinə görə, onun sifətindən güllə ilə vuran 3 quldur idmançının ölmədiyini gördükdən sonra sinəsindən bıçaqlayıb.

MMA döyüşçüsünün əsl adı Adriano Silbert Santana idi və onu həyat yoldaşının və 9 yaşlı övladının gözü önündə qətlə yetiriblər.

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi məktəbin direktoru Cəfər Hümbətova, əzizi

**Səfər Sadiqovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru Cəfər Hümbətova, əzizi

**Səfər Sadiqovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Fazil Hadıbəyov, Nazir Rəhimov, Rasim Muradov, Saleh Yusibov və Murad Fərzəliyev Cəfər Hümbətova, əzizi

**Səfər Sadiqovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

**Baş redaktor:**
**M.Q.Fərzəliyev**

**Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168**

**AZƏRBAYCAN BEYNƏLXALQ BANKI**
**H/H AZ79IBAZ38090019449333849204**
**M/H 0137010002944**
**KOD 805250**
**VÖEN 1500306421**

**Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**
**Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.**

**Qiyməti 20 qəpikdir.**
**Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.**

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.**

***E-mail:***
**olimpiya_dunyasi@mail.ru**
***Ünvan:***
**Bakı şəhəri,**
**2-ci sülh döngəsi, 2a.**
***Tel.:*** **564-90-49; 564-90-54; 564-74-19**